QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 021 (5493) 2 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## "Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri çox uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Türkiyənin əmək və sosial müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

### 2 Fevral Ümumrespublika Gənclər Günüdür

Bax 11

*Bu gün Azərbaycan dinamik inkişaf edən ölkədir. Onun xarici görkəmini dəyişən tikililər, günü-gündən güclənən milli ordu, möhkəm və etibarlı siyasət dövlətin gələcəyinə uğurla və inamla addım atmağa şərait yaradır. Qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə formalaşdığı hazırkı mərhələ ölkəmizdə sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrə gənclərin daha fəal iştirakının yüksəldilməsini tələb edir...*

### Naxçıvan məhsulları dünyanın ən nüfuzlu beynəlxalq sərgisində

Bax 5

*Almaniyanın paytaxtı Berlində kənd təsərrüfatı, bağçılıq və ərzaq sahələrində dünyanın ən mötəbər beynəlxalq sərgilərindən biri olan və hər il təşkil edilən "Beynəlxalq Yaşıl Həftə - 2018" sərgisində Azərbaycan pavilyonunda Naxçıvan Muxtar Respublikasına ayrılmış guşədə Naxçıvanda fəaliyyət göstərən şirkətlərin məhsulları nümayiş etdirilib. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib...*

### Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib

Bax 6

*Fevralın 1-də Milli Məclisin 2018-ci ildə ilk plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov yaz sessiyasını açıq elan etdikdən sonra dövlət himni səsləndirildi. Gündəliyin təsdiqindən sonra Oqtay Əsədov diqqətə çatdırdı ki, parlament yaz sessiyasında da dövlət başçısının həyata keçirdiyi quruculuq işlərinin hüquqi bazasını təmin etmək üçün əzmlə çalışacaq...*


Prezident İlham Əliyev "Smart Africa" Təşəbbüsünün icraçı direktorunu qəbul edib



2

"Gənclər Günü Azərbaycanın ictimai-siyasi həyatının əlamətdar hadisələrindən biridir"



8

Şərur rayonunun Ərəbyengicə kəndi müasir və abad yaşayış məntəqəsinə çevrilib



4

Siyavuş Novruzov: "Azərbaycanda yeni amnistiya aktı qəbul edilməlidir"



3

Ulu öndər Heydər Əliyev Azərbaycanda Gənclər Gününü təsis etməklə vacib bir siyasi xəttin təməlini qoydu



5

Dövlətin gənclərə dəstək və diqqəti Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini daha da artırıb



7

7

MSK sədri: "Seçici siyahılarının dəqiqləşdirilməsi prosesi gedir"



14

Əli Kərimliyə "holland" zərbəsi



16

İngilis klubları bu qış transferlərə 430 milyon funt xərcləyiblər


Premier League

# "Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri çox uğurla inkişaf edir"

## *Prezident İlham Əliyev Türkiyənin əmək və sosial müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, ölkələrimizin sosial müdafiə sahəsində iş birliyinin razılıq doğurduğunu deyən Prezident İlham Əliyev bu sahədə təcrübə mübadiləsinin, birgə proqramların həyata keçirilməsinin zəruriliyini qeyd etdi. Ümumilikdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin çox uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimizin daim bir-birinin yanında olduğunu və bir-birini dəstəklədiyini dedi, münasibətlərimizin dünya miqyasında nümunəvi xarakter daşıdığını məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.



Xanım Jülide Sarıeroğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, bu vəzifədə fəaliyyətə başladıqdan sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu ifadə etdi. Nazir Türkiyə ilə Azərbaycanın daim bir-birinin yanında olmasını və ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq sosial müdafiə sahəsində də əlaqələrimizin dərinləşdirilməsinin vacibliyini qeyd etdi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi. Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev "Smart Africa" Təşəbbüsünün icraçı direktorunu qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də "Smart Africa" Təşəbbüsünün icraçı direktoru Hamadoun Toureni qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Hamadoun Toure sonuncu dəfə 2014-cü ildə Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi olarkən "Bakutel" Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisində iştirak etmək üçün ölkəmizə səfərini məmnunluqla xatırladı. 22 Afrika ölkəsinin üzv olduğu və 12 Afrika ölkəsinin dövlət başçısının idarə heyətinə daxil olduğu "Smart Africa" Təşəbbüsü və onun fəaliyyəti haqqında məlumat verən Hamadoun Toure Təşəbbüsün Afrika qitəsi üçün vahid rəqəmsal platformanın yaradılması işində vacib rol oynadığını, işlərin artıq yaxşı nəticələr verdiyini, həmçinin layihələrdə peyk texnologiyalarının tətbiqi istiqamətində "Azərkosmos" ASC ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə "Smart Africa" Təşəbbüsü arasında gələcək əməkdaşlığı dəstəklədiyini və bu sahədə istiqamətlərin müəyyənləşdirilməsinin önəmini vurğuladı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin təsis edilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 928-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 935-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 934-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 942-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan ilə Türkiyə arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov fevralın 1-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Əli Əhmədov ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərindən danışaraq əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini söyləyib.



Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında əmək və sosial müdafiə sahəsində ikitərəfli əlaqələrdən danışılıb. Baş nazirin müavini bu əlaqələrin ildən-ilə genişləndiyini diqqətə çatdırıb, müxtəlif illərdə imzalanmış sənədlərin, keçirilmiş tədbirlərin əhəmiyyətini vurğulayıb. O, Türkiyənin əmək və sosial müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirib. Ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamını xatırladan Əli Əhmədov Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin əsrlərboyu davam edəcəyini söyləyib.

Xanım Jülide Sarıeroğlu əmək və sosial müdafiə naziri vəzifəsində ilk səfərini qardaş Azərbaycana etdiyindən məmnunluğunu bildirib. O, ölkəmizdə gördükləri qonaqpərvərliyə görə nümayəndə heyəti adından minnətdarlığını ifadə edib. Nazir Azərbaycanda özlərini doğma vətənlərindəki kimi hiss etdiklərini söyləyib. Ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlıq həyata keçirdiklərini vurğulayan xanım nazir sosial müdafiə sahəsində də əlaqələrimizin dərinləşdirilməsinin vacibliyini qeyd edib. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov: “Orta məktəblərdə müəllimlərin 28 faizi yaşı 35-dək olanlardır”

Hazırda ümumi təhsil müəssisələrində çalışan müəllimlərin 28 faizi yaşı 35 yaşadək olan gənc müəllimdir. Trend-in məlumatına görə, bunu təhsil naziri vəzifələrini icra edən, nazir müavini Ceyhun Bayramov bir qrup gənc müəllimlə görüşündə deyib. C.Bayramov bildirib ki, son illər müəllimlərin peşəkarlıq səviyyəsinin və nüfuzunun artırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. O, müəllimlərin işə qəbulu üzrə müsabiqənin şəffaf keçirilməsi nəticəsində ötən il 6000-dək müəllimin işə qəbul olunduğunu və onların 3794 nəfərinə həvəsləndirmə tədbirləri tətbiq edildiyini deyib. Qeyd edib ki, bu gün ölkəmizin ümumi təhsil müəssisələrində 151 458 müəllim çalışır, onlardan 42 263 nəfəri 35 yaşadək olan gənc müəllimdir. Bu da müəllimlərin ümumi sayının 28 faizi deməkdir. Ölkəmizin müxtəlif bölgələrində çalışan gənc, müasir, savadlı və peşəsinə bağlı olan müəllimlərlə görüşdən məmnun olduğunu vurğulayan Ceyhun Bayramov şagirdlərin milli dəyərlər əsasında formalaşmasında onların böyük rolunu vurğulayıb. Natiq müəllimlərin xoş sədasının, əldə etdikləri uğurların təhsil sahəsində aparılan islahatların müsbət nəticəsi və islahatlara davam etməyin əlavə stimulu kimi dəyərləndirib.

# Siyavuş Novruzov: “Azərbaycanda yeni amnistiya aktı qəbul edilməlidir”



“Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyidir. Bununla bağlı ölkə başçısı tərəfindən sərəncam imzalanıb və bu əlamətdar hadisə ilə əlaqədar tədbirlərin keçirilməsi nəzərdə tutulur”. Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov parlamentin yaz sessiyasının ilk iclasında çıxışı zamanı deyib. Bu il eyni zamanda müasir müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin qeyd olunacağını deyən S.Novruzov bildirib ki, Milli Məclisin tədbirlər planına bununla bağlı da məsələlər daxil edilməlidir. Onun sözlərinə görə, Ümummilli Liderin fəaliyyətinin əsas hissəsini ölkədə humanizm prinsiplərini bərqərar etmək təşkil edib.

“Humanizm Ulu Öndərin həyat meyarı olub. Məhz 1995-ci ildən 2018-ci ilədək istər Ulu öndərin, istərsə də Prezident İlham Əliyevin hakimiyyəti dövründə Amnistiya və Əfv fərmanları qəbul edilib. Bu müddət ərzində 63 əfv və 11 amnistiya qərarı qəbul edilib. Hər bir millət vəkili amnistiya təşəbbüsü ilə çıxış edə bilər. Builki əlamətdar hadisələri nəzərə alaraq, ölkə başçısından bu təşəbbüsü öz üzərinə götürməyi xahiş edə bilərik. Bu, həm AXC-nin 100 illiyinə, həm də Ulu Öndərin anadan olmasının 95 illiyinə verilən qiymət ola bilər”-deyən millət vəkilinin sözlərinə görə, bu amnistiya faktı digərlərindən fərqlənməlidir.

“Hesab edirəm ki, bu akt fərqli olmalıdır. Amnistiya aktının əhatəsi prinsip etibarı ilə geniş olmalıdır. Bu amnistiya aktı ilk növbədə ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edənlərə, yaşı 60-dan yuxarı olan qadınlara, həmçinin himayəsində azyaşlı uşaqları olanlara, yaşı 70-dən yuxarı olan bütün kişilərə, radikal cərəyanlara qoşulmayan dindar şəxslərə, ayrı-ayrı reputasiyalı beynəlxalq təşkilatların təsirinə düşüb bilmədən cinayət törədən gənclərə tətbiq oluna bilər. Bu gün ATƏT-də, NATO-da, AŞPA-da müəyyən qruplar var ki, müxtəlif bəhanələrlə ölkəmizin imicinə kölgə salmağa çalışırlar. Hesab edirəm ki, amnistiya aktı bu məsələlərə də son qoya bilər”-deyə, YAP İcra katibinin müavini vurğulayıb.

# “Tərəflər təmas xəttində müşahidəçilərin sayının artırılması ilə əlaqədar parametrlər barədə razılığa gəlməyə yaxındırlar”

Dağlıq Qarabağda təmas xəttində ATƏT-in müşahidəçilərinin sayının artırılmasına dair danışıqlar hələ 2010-cu ilin əvvəlində başlanıb. AZƏRTAC xəbər verir ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu sözləri İtaliyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ancelino Alfano ilə görüşdən sonra keçirilən mətbuat konfransında söyləyib. Nazir qeyd edib ki, 2016-cı ilin aprel ayında Dağlıq Qarabağda təmas xəttində baş vermiş hadisələrdən sonra Vyanada Azərbaycan və Ermənistan prezidentlərinin görüşü, həmin il iyun ayında isə Sankt-Peterburqda Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilib. RF XİN başçısı deyib: “Bu görüşlərdə təmas xəttindəki müşahidəçilərin sayının 6-7 nəfər artırılması barədə razılaşma əldə edilib. Bu razılaşmanı reallaşdırmaq üçün iş aparılıb, hazırda tərəflər bununla əlaqədar konkret parametrlər barədə razılığa gəlməyə yaxındırlar”. Onun sözlərinə görə, münaqişələrin tənzimlənməsi ilə bağlı hər hansı proseslər təhlükəsizliyin möhkəmlənməsi və siyasi tənzimləmə addımlarının da daxil olduğu paralel tədbirləri əhatə etməlidir S.Lavrov deyib: “Atəşlərin sayı nə qədər çox olsa, bir o qədər tezliklə razılıq əldə edilər” məntiqi real həyatda yaramır. Ümidvaram ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in həmsədrləri tərəfindən fəal dəstəklənmiş razılaşması reallaşacaq”.



# Bolqarıstanın “Bloomberg TV”kanalında Azərbaycan ilə Bolqarıstan arasındakı iqtisadi əlaqələr müzakirə olunub

Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun yanvarın 15-16-da Azərbaycana baş tutmuş səfəri və Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən yanvarın 16-da “Buta Airways” şirkəti tərəfindən həyata keçirilmiş Bakı-Sofiya-Bakı marşrutu üzrə həyata keçirilən ilk uçuşdan sonra “Bloomberg TV Bulgaria” telekanalının “Biznesə başlamaq” (“Business Starts”) verilişində Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanovanın iştirakı ilə Azərbaycan ilə Bolqarıstan arasında əlaqələr barədə müzakirələr aparılıb. Verilişdə üç il öncə Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana səfəri zamanı imzalanmış iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməyə istinad edilərək Azərbaycan və Bolqarıstanın tək dost ölkə deyil həm də strateji tərəfdaş olduğu qeyd olunub.

Cəmi iki ildən sonra 1 milyard kubmetr həcmində ilk Azərbaycan qazının Bolqarıstana nəql olunacağı, bununla da ölkənin qaza olan tələbatının 1/3 hissəsinin ödəniləcəyi, Bolqarıstanın Baş naziri Boyko Borisovun Azərbaycana səfəri zamanı SOCAR-ın Bolqarıstanın qazlaşdırılmasında iştirakı imkanlarının araşdırılması barədə iki ölkə arasında razılığın əldə edildiyi və 2017-ci ilin iyul ayında Azərbaycan qazının Bolqarıstandan regionun digər ölkələrinə tranzit imkanlarının araşdırılması barədə “Bulgartransgaz” ilə SOCAR arasında anlaşma memorandumunun imzalandığı tamaşaçıların diqqətinə çatdırılıb.




Bolqarıstanın Azərbaycan üçün etibarlı tərəfdaş olduğu, iki ölkə arasında əməkdaşlığın genişlənməsi üçün digər sahələrdə böyük potensialın mövcud olduğu, xüsusən nəqliyyat sahəsində Azərbaycan tərəfindən həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və bu yolun Bolqarıstan üçün Mərkəzi Asiya regionuna çıxış imkanı yaratdığı, bu kontekstdə Avropa İttifaqının BTK ilə bağlı bəyanatında Bolqarıstanın xüsusi vurğulandığı qeyd olunub.

Həmçinin bildirilib ki, “Buta Airways” şirkəti Avropa İttifaqı xaricindən Bolqarıstana uçan ilk aşağıbüdcəli aviaşirkətdir və eyni zamanda, “Buta Airways” şirkəti Avropa İttifaqı ölkələri arasında birinci məhz Bolqarıstana uçuşunu gerçəkləşdirib. Verilişdə 2016-cı il ərzində 16 min Azərbaycan turistinin Bolqarıstana və 1500 bolqar turistinin Azərbaycana səfər etdiyi, ölkəmizə ötən il ərzində iki milyondan artıq turistin gəldiyi, 3.5 milyon Azərbaycan vətəndaşının isə xaricə səfər etdiyi barədə məlumat verilib. Bunlarla yanaşı, Azərbaycanın turizm potensialı, iki ölkə arasında turizm əlaqələrin genişləndirilməsi imkanları, Azərbaycanın Bolqarıstandakı səfirliyinin bu sahədəki fəaliyyəti və 2018-ci ildə təşkil edəcəyi tədbir və sərgilər barədə məlumat verilib.

Bakı ilə Sofiya arasında birbaşa hava əlaqəsinin tək turizm deyil həm də işgüzar əlaqələrin genişlənməsinə imkan yaradacağına nəzər salaraq Azərbaycanın kənd təsərrüfatı, İKT və sənaye sahələri barədə məlumat verilib. Həmçinin cari ilin ikinci yarısında Azərbaycan-Bolqarıstan Müştərək Komissiyanın 5-ci iclasının keçirilməsi, eləcə də Azərbaycan iş adamlarından ibarət ticarət missiyasının Bolqarıstana təşkil ediləcəyinin nəzərdə tutulduğu bildirilib.

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: “Ulu öndər Heydər Əliyevin fəaliyyəti və siyasəti nəticəsində biz bugünkü Azərbaycanı, möhkəm təməl üzərində qurulmuş dövləti görürük. Bu gün dövlətimiz onun siyasəti əsasında uğurla inkişaf edir”.**

Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını da davamlı inkişaf yoluna çıxarıb, yaşayış məntəqələri müasirliyə qovuşub. Kəndlərin inkişafına göstərilən qayğı, tikilən yeni sosial obyektlər əhalinin rahat yaşayışını və bölgələrin tarazlı inkişafını təmin edib.

# Şərur rayonunun Ərəbyengicə kəndi müasir və abad yaşayış məntəqəsinə çevrilib



## Ərəbyengicə kəndində yeni məktəb binası istifadəyə verilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fevralın 1-də Ərəbyengicə kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib. Məlumat verilib ki, müasir layihə əsasında tikilən 3 mərtəbəli məktəb binasında lazımi tədris şəraiti yaradılıb. 208 şagird yerlik məktəbdə 2-si elektron lövhəli olmaqla 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, 17 kompüterin quraşdırıldığı kompüter otağı, müəllimlər otağı, 2710 kitab fonduna malik kitabxana və idman zalı vardır. Kitabxanada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb.

Ali Məclisin Sədri kitabxanada, kompüter otağında, hərbi kabinədə, laboratoriyalarda, idman zalında və şahmat sinfində olub, birinci sinif şagirdlərinin dərs prosesi ilə maraqlanıb, elektron lövhəli sinifdə 209 təhsil müəssisəsi ilə Naxçıvan Dövlət Ədəbiyyat Muzeyi arasında keçirilən distant dərsi izləyib.

Hərbi kabinəyə baxış zamanı qeyd olunub ki, şagirdlərin hərb sənətinə marağı böyükdür. Ötən il bu məktəbi bitirən məzunlardan biri Dövlət Sərhəd Xidmətinin Akademiyasına qəbul olunub. Bu il isə iki şagird Heydər Əliyev adına Hərbi Liseyə sənəd verəcəkdir.

Ali Məclisin Sədri elektron dərsliklərdən və internetdən səmərəli istifadənin əhəmiyyətini vurğulayıb, kitab mütaliəsinə marağın artırılması və idman dərslərinin keçirilməsinə diqqət yetirilməsi barədə tapşırıqlar verib. Sonra müəllimlər otağında məktəbin pedaqoji kollektivi ilə görüş olub.

Ali Məclisin Sədri yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə müəllimləri təbrik edərək deyib: Ərəbyengicə kənd tam orta məktəbi müasir tədrisin tələblərinə uyğun qurulub. Məktəb daim öz nailiyyətləri ilə fərqlənib. Ötən tədris ilində məktəbi bitirən hər iki məzun ali məktəblərə qəbul olmuş, onlardan biri 500-700 intervalında bal toplamışdır. Bu da məktəbdə tədrisin və təlim-tərbiyənin düzgün təşkil olunmasının nəticəsidir. Qazanılan nailiyyətlərə görə kollektivə təşəkkür edən Ali Məclisin Sədri deyib: Müasir məktəb binasının istifadəyə verilməsi uğurların daha da artmasına imkan verəcək, məktəbi bitirən hər bir gənc öz istəyinə uyğun peşə sahibi olacaqdır. Çünki məktəbdə bütün fənlər üzrə müəllimlər fəaliyyət göstərir, intizam var, tədris müəllim tələbkarlığı və şagird çalışqanlığı üzərində qurulub. Məqsəd ondan ibarətdir ki, gənclərimiz dövlətimizin yaratdığı bu şəraitdən istifadə edərək özlərinə düzgün həyat yolu seçsinlər, peşə öyrənsinlər. Bu gün ölkəmizdə orta, peşə, orta ixtisas və ali təhsil pillələri üzrə hərtərəfli tədris şəraiti vardır. Eyni zamanda dövlətimiz tərəfindən yaxşı oxuyan gənclərin xaricdə təhsil alması üçün də şərait yaradılmışdır.

Ali Məclisin Sədri deyib: Ölkəmizdə məktəb işinə və müəllim peşəsinə yüksək qiymət verilir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, “Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır”. Bu gün ölkəmizin dəyərli, təhsilli, tərbiyəli və vətənpərvər gənclərə ehtiyacı vardır. Çünki Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlətin ən qiymətli sərvəti onun vətəndaşlarıdır. Vətəndaş da o zaman qiymətli hesab olunur ki, o təhsilli, tərbiyəli və vətənpərvərdir. Bütün bunlar isə məktəbdə hazırlanır. Ona görə də kollektiv üzərinə düşən vəzifələri uğurla yerinə yetirməli, ölkəmiz üçün dəyərli vətəndaşlar hazırlamalıdır. Ali Məclisin Sədri məktəbin kollektivinə fəaliyyətlərində uğurlar arzulayıb.



Gənc müəllim Sahabcan Səfərova deyib ki, müasir tədris avadanlıqları ilə təchiz olunmuş məktəb binasının istifadəyə verilməsi müəllim və şagirdlərin böyük sevincinə səbəb olub. Bu gün muxtar respublikamızda bütün sahələrdə uğurlar qazanılır. 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionlarının reytinq siyahısında lider olması bunu bir daha təsdiq edir. 2018-ci ildə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilməsi bizi qürurlandırır. Göstərilən diqqət və qayğının nəticəsidir ki, gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər. Sahabcan Səfərova yaradılan şəraitə görə məktəbin kollektivi və gənclər adından minnətdarlıq edib, təhsilli və vətənpərvər gənclər yetişdirəcəklərinə söz verib.

Ali Məclisin Sədri Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsində aktiv iştirak edən bütün muxtar respublika gənclərinə təşəkkürünü bildirib və onları təbrik edib. Məktəb binasının həyətində də abadlıq işləri aparılıb, bufet və açıq idman qurğuları istifadəyə verilib.

## Ərəbyengicə kənd mərkəzinin açılışı olub

Fevralın 1-də Ərəbyengicə kənd mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra binada yerləşən təşkilatların fəaliyyəti ilə maraqlanıb. Bildirilib ki, kənd mərkəzində rabitə evi, polis sahə məntəqəsi, baytarlıq məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, statistika otağı və 56 yerlik zal yerləşir. Kitabxana fondunda 3117 kitab vardır. Burada elektron kataloq sistemi tərtib olunub, ədəbiyyatlar dövrləşməyə uyğun yığılıb, oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb.

Yeni Azərbaycan Partiyası Ərəbyengicə kənd ərazi ilk təşkilatının 131 üzvü vardır. Onlardan 29-u gənc, 42-si isə qadındır. Rabitə evində 288 yerlik yeni nəsil ATS quraşdırılıb, poçt bölməsi fəaliyyətə başlayıb. Kəndə fiberoptik kabel xəttinin çəkilməsi internetə çıxış imkanlarını yaxşılaşdırıb. Hazırda kənddə 36 internet istifadəçisi vardır.

Ali Məclisin Sədri kənddə əhalinin məşğuliyyəti və yaşayışı ilə maraqlanıb. Ərəbyengicə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Vüsal Kərimov məlumat verib ki, kənddə əkinçiliyin və heyvandarlığın inkişafına xüsusi diqqət yetirilir. Hər il sahələrdən bol taxıl, qarğıdalı və bostan-tərəvəz məhsulları yığılır. Yaradılan şərait ailə təsərrüfatlarının inkişafı üçün də geniş imkanlar açıb. Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması, statistik qeydiyyatların dəqiq aparılması, bütün növ ödənişlərin poçt vasitəsilə həyata keçirilməsi barədə tapşırıqlar verib. Kənd mərkəzinin həyəti də abadlaşdırılıb, yaşıllıqlar salınıb.

## Ərəbyengicədə həkim ambulatoriyası fəaliyyətə başlayıb

Ərəbyengicə kəndində yaradılan müasir səhiyyə infrastrukturu insan amilinə verilən dəyərin ifadəsidir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikanın hər bir yaşayış məntəqəsində sakinlərə hərtərəfli tibbi xidmət göstərilir. Fevralın 1-də Ərəbyengicə kəndində həkim ambulatoriyası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib, yaradılan şəraitlə maraqlanıb. Bildirilib ki, ambulatoriya 11 otaqdan - baş həkim, stomatoloq üçün kabinə, palata, doğuş, peyvənd, mama, qeydiyyat, səhiyyə maarifi mərkəzi, manipulyasiya, tibb bacısı otağı və aptekdən ibarətdir. Otaqlarda stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, mikroskop, peyvənd və təcili yardım çantaları, eləcə də digər tibbi avadanlıqlar qoyulub, fizioterapiya kabinəsi yaradılıb. Kabinəyə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksək tezlikli cərəyanla müalicə aparatı, parafin əritmə qazanı və SOLYUKS lampası qoyulub.

İcbari tibbi sığortanın tətbiqi ilə əlaqədar yaradılan səhiyyə maarifi mərkəzində maarifləndirici stendlər, müxtəlif məlumat kitabçaları, müayinə və müalicə protokolları qoyulub. Bildirilib ki, Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi zamanı bütün həkim ambulatoriyalarında bu cür mərkəzlərin yaradılması nəzərdə tutulur. Ali Məclisin Sədri səhiyyə maarifi mərkəzində qəbul həkiminin fəaliyyəti üçün lazımi şəraitin yaradılması və tibbi avadanlıqların qoyulması barədə tapşırıqlar verib.

## Xidmət mərkəzində 6 iş yeri yaradılıb

Həmin gün Ərəbyengicə kəndində xidmət mərkəzi də istifadəyə verilib. Ali Məclisin Sədri mərkəzin açılışını etdikdən sonra burada yaradılan şəraitlə maraqlanıb.

Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, dərzi və iki anbar yerləşir. Mərkəzdə 6 kənd sakini işlə təmin olunub. Ərzaq mağazasında ailə təsərrüfatı məhsullarından ibarət ayrıca satış bölməsi yaradılıb. Bərbər və qadın saç ustası peşə məktəbində oxuyaraq müvafiq sertifikat alıblar. Sonra sakinlərlə görüş olub.

Ali Məclisin Sədri Ərəbyengicə kəndinin abad kəndlərin sırasına daxil olması münasibətilə sakinləri təbrik edərək deyib: Quruculuq işlərindən sonra Ərəbyengicə müasir Azərbaycan kəndinə çevrilmişdir. Bu gün kəndlərin abadlaşması rayonların, rayonların abadlaşması isə ölkəmizin abadlaşması və inkişafı deməkdir. Kəndlərdə görülən bu işlər insanların rahatlığının təmin olunmasına hesablanıb. Uşaqlar müasir məktəbdə təhsil alacaq, dövlət qurumları lazımi şəraiti olan binada fəaliyyət göstərəcək, sakinlərə hərtərəfli xidmət göstəriləcəkdir. Bütün bunlar ölkəmizin iqtisadi inkişafının göstəricisidir. Ölkəmiz inkişaf etdikcə bu inkişafdan onun hər bir kəndinə, şəhərinə pay düşür, yaşayış məntəqələrində quruculuq, abadlıq işləri aparılır.

Ali Məclisin Sədri deyib: Ərəbyengicə muxtar respublikamızın məhsuldar torpaqlara və zəhmətkeş insanlara malik olan kəndidir. Kənddə əkinçilik, heyvandarlıq və maldarlıq inkişaf etdirilir. Bu gün kəndə dayanıqlı elektrik enerjisi və təbii qaz verilir, yaşıllıqların sahəsi artır. Suvarma suyuna olan tələbat tamamilə ödənilir. Sakinlər dövlətin yaratdığı şəraitdən səmərəli istifadə edərək təsərrüfatlarını genişləndirir, yeni evlər tikirlər, məskunlaşma artır.

Ali Məclisin Sədri bundan sonra da kəndin imkanlarından səmərəli istifadə olunacağına əminliyini bildirib, sakinlərə firavan həyat arzulayıb. Kənd sakinləri adından minnətdarlıq edən Səfər Ramazanov deyib: Bu gün Ərəbyengicə kənd sakinlərinin istifadəsinə abad yaşayış məntəqəsi verilir. Aparılan quruculuq işlərindən sonra kəndimiz qəsəbə görkəmi alıb. Yollarımız abadlaşıb, asfalt örtüyü salınıb. Yeni məktəb binası, kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzi kəndimizin simasını tanınmaz dərəcədə dəyişib. Dayanıqlı elektrik və qaz təminatı, rabitə xidməti, sürətli internetə çıxış imkanları insanları qayğılardan azad edib. Ərəbyengicə kəndində sakinlərin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Kənd camaatı zəhmətkeş, torpağa bağlı insanlardır. Suyumuz bol, torpaqlarımız məhsuldardır. İstehsal etdiyimiz məhsulları yarmarkalarda rahat satırıq. Bir sözlə, kəndin bütün sosial problemləri öz həllini tapıb. Heç bir çətinliyimiz yoxdur. Bir məsələni də qeyd edim ki, quruculuq, abadlıq, inkişaf muxtar respublikanın hər bir yaşayış məntəqəsini əhatə edib. Naxçıvana gələn qonaqlar şəhərlərimizin, kəndlərimizin inkişafını görəndə öz təəccüblərini gizlədə bilmirlər. Bu isə bizi daha çox sevindirir, qurub yaratmaq əzmimizi artırır. Söz veririk ki, bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edəcək, quruları qoruyub saxlayacağıq.

X X X

Ərəbyengicə kəndində yol infrastrukturu da tamamilə yenidən qurulub. Belə ki, 10,8 kilometr yola asfalt örtük salınıb, 6,7 kilometr yol isə hamarlanaraq qum-çınqıl qatı verilib. Yolun üzərində 25 su keçidi qoyulub, 280 metrlik beton kanal çəkilib. Rabitə sistemi də müasirləşdirilib, 800 metr fiberoptik kabel xətti çəkilib, 9 kilometrə yaxın rabitə xətləri təmir olunub. Kənddə 500 metrlik elektrik və 384 metrlik yeni qaz xətləri də çəkilib, mövcud elektrik və qaz xətlərində bərpa işləri aparılıb.

# Ulu öndər Heydər Əliyev Azərbaycanda Gənclər Gününü təsis etməklə vacib bir siyasi xəttin təməlini qoydu

*Birinci vitse-prezidentin köməkçisi, Azərbaycan Respublikasının Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyevin yap.org.az-a müsahibəsi*

*- Yusuf müəllim, Ümummilli liderimiz Heydər Əliyevin Sərəncamı ilə 2 fevral tarixi Azərbaycanda Gənclər Günü kimi qeyd olunur. Sizcə, Gənclər Gününün təsis edilməsinin və hər il bu günün böyük təntənə ilə bayram kimi qeyd olunmasının Azərbaycan gəncliyinin inkişafı baxımından əhəmiyyəti nədən ibarətdir?*



- Bu tarixin təsadüfi seçilmədiyini bilirik. 2 fevral 1996-cı ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Gənclərinin Forumu keçirilmişdi. Bu müasir Azərbaycan tarixində dövlət tərəfindən həyata keçirilən gənclər siyasətinin dönüş nöqtəsidir. Yenicə müstəqillik qazanmış, siyasi və sosial böhran dövründən, Qarabağ cəbhəsində ağır döşyüşlərdən çıxmış Azərbaycan gəncliyinin təmərküzləşməsinə, ölkənin inkişafı yolunda fəaliyyətinin koordinasiyasına böyük ehtiyac . Uzaqgörən siyasətçi Heydər Əliyev bunu yaxşı bilirdi və bu forumu keçirməklə, ondan bir qədər sonra Azərbaycanda Gənclər Gününü təsis etməklə, vacib bir siyasi xəttin təməlini qoydu. Onun əsasını qoyduğu gənclər siyasəti bu gün də davam edir, dövrün tələblərinə uyğun şəkildə icra olunur.

*- Azərbaycan gəncliyi bu gün hərtərəfli şəkildə dövlətin qayğısı ilə əhatə olunub. Hazırda, Azərbaycan Respublikasında həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətləri nədən ibarətdir?*

- Bəli, haqlı olaraq qeyd edirsiniz ki, ölkəmizdə gənclər siyasəti prioritet sahələr sırasındadır. Bu gün Azərbaycanda gənclər siyasətinin qarşısında duran əsas məqsədlər gənclərin vətənpərvərlik ruhunun yüksək olması, onların yaxşı təhsilə yiyələnməsi, asudə vaxtlarının səmərəli keçirilməsi, idman sahəsində uğurlarının daha da artırılması, məşğulluq, sağlamlıq, sosial və digər problemlərinin həllinə dəstək olmaqdır. Ölkə gəncliyinin innovativ potensialını nəzərə alaraq, bu istiqamətdə onların fəaliyyətini təşviq etmək, gənclərlə intensiv fikir mübadiləsi həyata keçirmək, ən əsası isə rəqabətə davamlı kadrların formalaşdırılması, hazırda qarşıda duran prioritet istiqamətlərdəndir. Azərbaycan gəncliyi öz gələcəyi ilə ölkənin gələcəyini bərabər görməli, bu gələcəyin daha gözəl olmasına inamlı olmalıdır.

*- Yusuf müəllim, Azərbaycan Respublikası siyasi, iqtisadi və hərbi potensialına görə regionun lider dövlətidir. Bu reallıq fonunda Azərbaycan gəncliyinin peşəkarlığı, bilik və bacarığı ilə regionda lider gənclik statusu baxımından mövqeyi necədir? Və bu mövqeyi daha da gücləndirmək üçün gənclər üzərinə nə kimi vəzifələr düşür?*

- Azərbaycan Respublikasının sadaladığınız istiqamətlər üzrə regionun lider dövlətinə çevrilməsində ölkə rəhbərliyinin fəaliyyəti ilə bərabər, vətəndaşlarımızın, o cümlədən gənclərimizin də rolu böyükdür. Azərbaycan gəncliyinin beynəlxalq idman yarışlarında, elmi konfrans və seminarlarda, biznes sahəsində uğurları göz qarşısındadır və bu göstəricilər Azərbaycanı gənclər siyasəti və idman məsələlərində regionun lideri edir. Azərbaycan ordusunda xidmət edən gənclərimiz, beynəlxalq koalisiyası tərkibində dünyanın qaynar nöqtələrində sülhyaratma missiyasını uğurla yerinə yetirirlər. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan gəncliyi öz bilik və bacarıqlarını reallaşdırmaq üçün müvafiq mühitlə təmin edilib. Dövlətimizin yaratdığı bu imkanlar sayəsində, ölkəmizin gəncliyinin regiondakı mövqeyi də ölkəmizin mövqeyi ilə paralel olaraq möhkəmlənməkdədir. Əlbəttə, bu mövqeyi daha da möhkəmləndirmək üçün durmadan çalışmaq lazımdır. Dünyada baş verən prosesləri yaxından izləmək, ziyanlı tendensiyaların vaxtında qarşısını almaq, müsbət təzahürləri isə ölkəmizin inkişafı naminə təbiq etmək lazımdır.

*- Yusuf müəllim, bu gün Azərbaycan Respublikasında yüzlərlə gənclər təşkilatı fəaliyyət göstərir. Siz gənclər təşkilatlarının fəaliyyətini necə qiymətləndirirsiniz? Bu gün gənclər, eləcə də gənclər təşkilatları öz üzərlərinə düşən vəzifəni necə yerinə yetirirlər?*

- Gənclər təşkilatlarının çoxluğu ölkəmizdə yaradılmış azad, plüralist mühitin nəticəsidir. Hazırda istənilən qrup öz maraqlarına uyğun formada birləşə, həmfikirləri ilə bərabər təşkilatlana bilər. Həmçinin təşkilatların koalisiyalaşması da baş verir. Gənclər Təşkilatları Milli Şurası kimi bir birlik var. Ölkə rəhbərliyi isə bu təşkilatların inkişaf etməsi, onların ölkəmizin xeyrinə yönəlmiş fəaliyyətinə kömək məqsədilə lazımi dəstəyi verir. Bu mənada Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun fəaliyyətini qeyd etmək olar. O ki qaldı gənclər təşkilatlarının işlərinin qiymətləndirilməsinə, fikrimcə onların daha böyük işlər görmək üçün yaxşı potensialı var. Əminəm ki, gənclər təşkilatları fəaliyyətlərində daha aktiv olacaqlar, dövlətimizin onlara olan etimadını doğruldacaqlar.

*- Gənclər təşkilatlarının daha səmərəli və koordinasiyalı fəaliyyətini təmin etmək üçün müvafiq dövlət qurumları nə kimi addımlar atır?*

- Gənclər təşkilatları müstəqil olaraq fəaliyyət göstərirlər. Dövlət qurumları isə onların fəaliyyətinə lazımi dəstəyi verir. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu hər il yüzlərlə layihəni maliyyələşdirir. Bu üsulla dövlət, gənclər siyasətinin həyata keçirilməsində QHT-lərin iştirakını təmin etməklə bərabər, gənclərin təşəbbüslərini dəstəkləyir. Ölkəmiz üçün vacib əhəmiyyət kəsb edən məsələlərdə gənclər təşkilatlarının birləşməsinin şahidi oluruq. Məsələn, "Xocalıya ədalət" kampaniyası kimi ümummilli məsələlərdə demək olar bütün gənclər təşkilatları bərabər fəaliyyət göstərirlər.

*- Yusuf müəllim, bu gün Azərbaycan Respublikası beynəlxalq müstəvidə idman dövləti kimi də böyük nüfuza malikdir. Azərbaycan dövlətinin gənclər və idman siyasətinin vəhdəti bu sahədə perspektiv üçün nə kimi nailiyyətlər vəd edir?*

- Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının arxasında 20 ildən artıq davam edən məqsədyönlü dövlət siyasəti durur. Ölkə başçısı cənab İlham Əliyevin şəxsən Milli Olimpiya Komitəsinə rəhbərlik etməsi faktı, dövlətin idmana olan münasibətinin göstəricisidir. Ölkəmiz nəinki idmançıların uğurları ilə tanınır, eləcə də böyük idman yarışlarının təşkilatçısı kimi nüfuz qazanıb.

Bütün görülən işlər sayəsində ölkəmiz müxtəlif nüfuzlu idman turnirlərinin ev sahibinə çevrilir. Bu isə öz növbəsində ölkəmizin müsbət imici ilə bərabər, onun turizm potensialının, iqtisadiyyatının inkişafı üçün geniş imkanlar yaradır.

Və sonda gənclərimizi 2 fevral Gənclər Günü münasibətilə təbrik edirəm, Azərbaycan naminə fəaliyyətlərində uğurlar arzu edirəm!

## Komitə sədri BQXK-nın Azərbaycan nümayəndəliyinin rəhbəri ilə görüşüb



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 1-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib. Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonağa ölkəmizdəki mövcud tolerantlıq mühiti və Komitənin fəaliyyəti barədə ətraflı məlumat verib. Azərbaycanda əsrlərboyu müxtəlif etnik qrupların birgə yaşamaq və bir-birilərinə hörmət etmək ənənələrinə yiyələndiklərini, ölkəmizdəki dini müxtəlifliyin cəmiyyətimizin ayrılmaz xüsusiyyəti olduğunu bildirib.

Söhbət zamanı Azərbaycan həqiqətlərindən də söz açan Komitə sədri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini, eyni zamanda, regionda mədəniyyətlərarası dialoqa, demokratik dəyərlərə, ümumbəşəri prinsiplərə, habelə sülh və təhlükəsizliyə ciddi təhdid kimi qiymətləndirilməli olduğunu qeyd edib. Nümayəndəliyin rəhbəri xanım Elena Aymone Sessera BQXK-nın Azərbaycan nümayəndəliyinin fəaliyyəti barədə danışıb. Dövlət Komitəsi ilə işgüzar əməkdaşlığın qurulmasında, eləcə də birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb. Sonda Mübariz Qurbanlı Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi "Azərbaycanın seçilmiş İslam abidələri", "İşğal altındakı tarixi-dini abidələrimiz", "Azərbaycanda dini müxtəliflik" kitablarını qonağa təqdim edib. Elena Aymone Sessera səmimi qəbula və əməkdaşlıq üzrə əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi üçün yaradılmış şəraitə görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

## Arzu Rəhimov Qusarda vətəndaşları qəbul edəcək



Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimov 15.02.2018-ci il tarixdə saat 11:00-da Xidmətin Qusar rayon şöbəsində Xızı, Siyəzən, Şabran, Quba, Qusar və Xaçmaz rayonlarının sakinlərinin qəbulunu həyata keçirəcək. SİA-nın verdiyi məlumata görə, qəbula yazılmaq istəyən vətəndaşların 12.02.2018-ci il tarixədək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin adları qeyd olunan rayon şöbə və bölmələrinə müraciət etmələri və qeydiyyatdan keçmələri zəruridir.

## Naxçıvan məhsulları dünyanın ən nüfuzlu beynəlxalq sərgisində




Almaniyanın paytaxtı Berlində kənd təsərrüfatı, bağçılıq və ərzaq sahələrində dünyanın ən mötəbər beynəlxalq sərgilərindən biri olan və hər il təşkil edilən "Beynəlxalq Yaşıl Həftə - 2018" sərgisində Azərbaycan pavilyonunda Naxçıvan Muxtar Respublikasına ayrılmış guşədə Naxçıvanda fəaliyyət göstərən şirkətlərin məhsulları nümayiş etdirilib. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 1926-cı ildən başlayaraq hər il keçirilən Avropanın ən iri sərgisində bu il 70-ə yaxın ölkənin şirkətləri iştirak edib. "Beynəlxalq Yaşıl Həftə - 2018" sərgisi kənd təsərrüfatı müəssisələrinin öz məhsullarını nümayiş etdirmək üçün ənənəvi bir forum olduğundan Azərbaycanın hər il bu sərgidə iştirak etməsi və geniş çeşiddə məhsullarını nümayiş etdirməsi artıq ənənəyə çevrilib.

Kənd təsərrüfatı və yeyinti məhsullarının nümayişi, satışı, müəssisələrin imicinin formalaşdırılması, brendlərinin reklamı və eyni zamanda, iştirak edən müəssisələrin kooperasiya əlaqələrinin genişləndirilməsi, yeni tərəfdaşların tapılması məqsədilə təşkil olunmuş "Beynəlxalq Yaşıl Həftə - 2018" sərgisinə muxtar respublikanın 8 istehsalçı şirkətinin 10 növdə, 39 çeşiddə məhsulu çıxarılıb.

Qeyd edək ki, ilk günlərdən Naxçıvan məhsulları sərgi iştirakçılarında böyük maraq doğurub. "Beynəlxalq Yaşıl Həftə - 2018"də "Gəmiqaya Mineral Sular" MMC-nin və Babək "Sirab" ASC-nin mineral suları, "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" MMC-nin şərabı, meyvə suları və halva şirniyyatı, "Şərur-3" MMC-nin spirtli içkiləri və likörü, "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC-nin lokumu, "Naxçıvan Duz İstehsalı" MMC-nin duzu, "F.H Oğulları" MMC-nin mürəbbə və cemləri, "Naxçıvan Məhsulları" MMC-nin müasir şəkildə qablaşdırılan meyvə quruları, kompotları, alma sirkəsi nümayiş olunub. Sərgi çərçivəsində iştirakçılara Naxçıvan haqqında müxtəlif çap məhsulları və kataloqlar, şirkətlərə aid təbliğat materialları paylanılıb.

# Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirilib

**Fevralın 1-də Milli Məclisin 2018-ci ildə ilk plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov yaz sessiyasını açıq elan etdikdən sonra dövlət himni səsləndirildi.**

Gündəliyin təsdiqindən sonra Oqtay Əsədov diqqətə çatdırdı ki, parlament yaz sessiyasında da dövlət başçısının həyata keçirdiyi quruculuq işlərinin hüquqi bazasını təmin etmək üçün əzmlə çalışacaq. Sədr Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzaladığını, iyun ayında Milli Məclisdə bu münasibətlə geniş tədbirlər planlaşdırıldığını dedi. Qeyd olundu ki, yaz sessiyasında parlamentdə Konstitusiyaya uyğun olaraq hökumətin və insan hüquqları üzrə müvəkkilin hesabatları da dinləniləcək.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. Əvvəlcə Milli Məclisin hesablayıcı və intizam komissiyalarının yenidən təşkil edilməsi haqqında parlamentin qərarları müzakirəyə çıxarıldı. Spiker Oqtay Əsədov bildirdi ki, müzakirəyə təklif olunan sənəddə komissiyaların əvvəlki sədrləri və üzvləri olduğu kimi saxlanılır. Hər iki qərar ayrı-ayrılıqda səsə qoyularaq təsdiqləndi.

Sonra Milli Məclisin 2018-ci il yaz sessiyasının qanunvericilik işləri planına baxıldı. Qanunvericilik işləri planına "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında", "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında", "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Konstitusiya qanunları, "Azərbaycanda Dövlət daktiloskopik və genom qeydiyyatı haqqında", "Daxili qoşunlar haqqında", "Ələt Azad İqtisadi Zonası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Texniki təmizləmə haqqında", "Standartlaşma haqqında", "Hesablama Palatası haqqında", "Kabel şəbəkəsi yayımı haqqında", "Kinematoqrafiya haqqında", "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Turizm haqqında", "Psixoloji yardım haqqında", "Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyalardan qorunması haqqında" çox mühüm qanun layihələri daxil edilib. Həmçinin Azərbaycan Prezidentinin, deputatların, Ali Məhkəmənin, Baş Prokurorluğun, Naxçıvan Ali Məclisinin qanunverici təşəbbüs qaydasında təqdim etdiyi qanun layihələri var.

Deputatlar Fazil Mustafa, Siyavuş Novruzov, Zahid Oruc, Əli Məsimli, Elmira Axundova, Fərəc Quliyev, Tahir Kərimli, Qüdrət Həsənquliyev, Əflatun Amaşov, Qənirə Paşayeva, Rövşən Rzayev sənədlə əlaqədar fikirlərini bildirdilər, təkliflərini səsləndirdilər. Qanunvericilik işləri planı səsə qoyularaq təsdiqləndi.

Sonra beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim etdi. Bildirildi ki, Avropa İttifaqının üzvü olan Litva ilə xidməti pasportlar sahəsində belə bir sənədin imzalanması Azərbaycan üçün əhəmiyyətli məsələdir. Sənəd səsə qoyularaq yekdilliklə qəbul edildi.



Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Sosial sığorta haqqında" Qanunda edilən dəyişiklikləri diqqətə çatdırdı. Bildirildi ki, sənəd "Nağdsız hesablaşmalar haqqında" 2017-ci il 13 iyun tarixli Qanuna uyğunlaşdırma məqsədi daşıyır. Qanunun 6-cı maddəsinə nəzərdə tutulan dəyişiklikdə bildirilir ki, bu uyğunlaşdırma əsasında "sosial sığorta ödəmələri sığorta olunanlara yalnız nağdsız qaydada, sığortaçı tərəfindən əməliyyat-axtarış, kəşfiyyat, əks-kəşfiyyat fəaliyyətinin subyektlərinə veriləcək. Sənəd səsə qoyularaq təsdiqləndi.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanuna edilən dəyişikliklərin də eynilə, "Nağdsız hesablaşmalar haqqında" 2017-ci il 13 iyun tarixli Qanuna uyğunlaşdırma məqsədilə edildiyini diqqətə çatdırdı. Sənəd təsdiq edildi.

Sonra Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi təqdim etdi. Bildirildi ki, "Nağdsız hesablaşmalar haqqında" Qanuna uyğunlaşdırma məqsədilə edilən dəyişiklik qanunun 14-cü maddəsinə tətbiq edilir. Maddədə terrorçuluğa qarşı mübarizədə iştirak edən şəxs terror əleyhinə aparılan əməliyyatlar zamanı həlak olduqda və ya xidmətini davam etdirməyə imkan verməyən dərəcədə xəsarət aldıqda ona və ya onun ailəsinə dövlət büdcəsi hesabına orta aylıq əməkhaqqı məbləğinin müvafiq olaraq yüz və ya doxsan misli miqdarında birdəfəlik müavinət ödənilməsi bildirilir. Təklif olunan dəyişikliyə görə isə həmin müavinət nağdsız qaydada ödəniləcək. Sənəd səsvermə yolu ilə qəbul edildi.

"Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi şərh edən səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov burada aparılan dəyişikliyin də "Nağdsız hesablaşmalar haqqında" Qanuna uyğunlaşdırma məqsədilə edildiyini dedi. Layihəyə görə, işləməyən vərəm xəstələrinə müalicə müddətində verilən müavinətin ödənilməsi yalnız nağdsız qaydada həyata keçiriləcək. Sənəd təsdiqləndi.

Sonra hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunda dəyişikliklər edilməsi barədə məlumat verdi. Bildirildi ki, qanunun 14-cü (Azərbaycan Respublikasının vətəndaşlığına qəbul) maddəsinə yeni müddəa əlavə edilir. Təklif olunan bənddə bildirilir ki, "2006-cı il yanvarın 1-ə qədər Azərbaycana gələrək burada daimi yaşayan, heç bir dövlətin vətəndaşlığına mənsub olmayan və şəxsiyyətini təsdiq edən etibarlı sənədləri olmayan şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilir. Bu müddəa könüllü olaraq mənsub olduğu dövlətin vətəndaşlığından çıxmış şəxslərə şamil edilmir. Qanuna bu əlavənin təklif edilməsi 2006-cı il yanvarın 1-ə qədər Azərbaycana gələn və burada daimi yaşayan, keçmiş SSRİ pasportlarına malik olan şəxslərə Azərbaycan vətəndaşlığına qəbul olunmaq imkanı yaratmaq məqsədi daşıyır. Sənəd səsə qoyularaq təsdiq edildi.

Sonra Əli Hüseynli İnzibati Xətalar, Şəhərsalma və Tikinti məcəllələrinə dəyişikliklər edilməsi haqqında sənədləri birlikdə şərh etdi. Bildirildi ki, hər iki sənəddə edilən dəyişikliklər "Reklam haqqında" Qanuna dəyişikliklər edilməsi barədə 2017-ci il 30 iyun tarixli qanunun tətbiqi ilə əlaqədar edilib. Bu dəyişikliklərə əsasən açıq məkanda ölçülərindən asılı olmayaraq reklam daşıyıcılarının tikintisinə, quraşdırılmasına, onlara konstruktiv dəyişikliklərin edilməsinə Şəhərsalma və Tikinti Məcəlləsində nəzərdə tutulmuş qaydada və hallarda müvafiq icra hakimiyyəti orqanı icazə verə bilər. Hər iki sənəd ayrı-ayrılıqda səsvermə yolu ilə təsdiqləndi.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Dərman vasitələri haqqında" Qanuna edilən dəyişikliyi diqqətə çatdırdı. Bildirildi ki, təklif olunan dəyişiklik sənədin 13-cü maddəsində aparılıb. Bu, 14 yaşı tamam olmamış şəxslərin həyat və sağlamlığına zərər vurulmaması məqsədilə onlara dərman vasitələrinin buraxılmasını qadağan edir. Qanun layihəsinə müsbət münasibət bildirildi.

Sonra Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim etdi. Qeyd olundu ki, təklif olunan dəyişiklik məcəllənin "ekoloji təhlükəsizlik haqqında" bölməsində aparılıb. Dəyişiklikdə ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənməsi normalarının pozulmasına görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən məsuliyyətin nəzərdə tutulması halları əksini tapır. Müzakirələrdən sonra sənəd səsə qoyularaq təsdiqləndi.

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədlə əlaqədar məlumat verən Əli Hüseynli bildirdi ki, layihəyə əsasən Azərbaycanda tikinti layihələrinin şəhərsalma sənədlərinin, o cümlədən müfəssəl planın müəyyənləşdirdiyi tələblərə uyğunluğuna dair tələbin tətbiqi müddəti 1 illiyinə uzadılır. Sənəd təsdiq edildi.

İclasda elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Peşə təhsili haqqında" qanun layihəsini ilk oxunuşda təqdim etdi. Sənədlə bağlı ətraflı məlumat verən komitə sədri bildirdi ki, burada peşə hazırlığının səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması məqsədilə peşə təhsili sahəsində dövlət siyasətinin prinsipləri, peşə təhsili və təlimi sisteminin təşkilati-hüquqi və iqtisadi əsasları müəyyən edilir. Qanunun hazırlanmasında məqsəd peşə təhsili sahəsində vətəndaşların Konstitusiya ilə nəzərdə tutulmuş təhsil hüququnun təmin olunmasından, peşə təhsili prosesi iştirakçılarının hüquqlarını və vəzifələrini müəyyən etməkdən, onlar arasında münasibətlərin tənzimlənməsindən və təşkilati-hüquqi bazanın yaradılmasından ibarətdir.

Sənəddə Azərbaycanın təhsil sistemində peşə təhsilinin yeri müəyyənləşib, bu təhsili alanlara müəyyən güzəştlər nəzərdə tutulub. Qanun layihəsində peşə təhsili ilə orta ixtisas təhsilinin inteqrasiyası əsas götürülüb. Komitə sədri sənəddə nəzərdə tutulan yenilikləri də şərh etdi. Layihəyə əsasən, peşə təhsili müəssisələrinin məzunlarına növbəti təhsil pilləsinə keçid zamanı üstünlük verilir. Bundan əlavə, ali məktəbə daxil olmaq istəyənlərə həqiqi hərbi xidmətdən möhlət hüququ verilir. Bu məktəbləri bitirənlərə həm də sahibkarlıq fəaliyyəti ilə bağlı xüsusi imtiyazlar təqdim olunur. Qanun layihəsində peşə təhsili müəssisələrinə birdəfəlik, müddətsiz lisenziya verilməsi, Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması ilə bağlı müddəalar da əksini tapır. Bildirildi ki, 5 fəsil, 26 maddədən ibarət sənəd təhsil və elm vasitəsilə ölkənin gələcək tərəqqisini və rifahını yüksəltməyə xidmət edəcək. Ətraflı müzakirələrdən sonra sənədə konseptual baxımdan müsbət münasibət bildirildi.

## Bu subyektlərin sosial ödəmələri nağdsız olacaq

Azərbaycanda əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinə sosial sığorta ödəmələri nağdsız qaydada veriləcək. SİA-nın məlumatına görə, Milli Məclisin dünən keçirilən iclasında bununla əlaqədar "Sosial sığorta haqqında" qanunun 17-ci (Sosial sığorta ödəmələrinin verilməsi) maddəsinə əlavə müzakirəyə çıxarılıb. Bu əlavəyə əsasən sosial sığorta ilə bağlı əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinə ödəmələr "Nağdsız hesablaşmalar haqqında" qanuna uyğun olaraq veriləcək. Layihə səsə qoyularaq qəbul olunub.

# Dövlətin gənclərə dəstək və diqqəti Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini daha da artırıb

## *YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucovun yap.org.az-a müsahibəsi*

***- Seymur müəllim, hər il 2 fevral tarixi ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. Bu gün Azərbaycanda həyata keçirilən dövlət siyasəti mütərəqqiliyi ilə fərqlənir. Gənclərin yüksək diqqət və qayğı ilə əhatə olunması, eləcə də onların potensialından səmərəli istifadə olunması dövlət gənclər siyasətinin əsasını təşkil edir. Bu barədə nə deyə bilərsiniz?***



- Bildiyiniz kimi, hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Bu mənada Azərbaycanda da gənclər cəmiyyətin bütün həyatında aktiv iştirak edirlər. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinə hər zaman qayğı ilə yanaşırdı. Öz növbəsində, Azərbaycan gəncliyi də Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirir.

Bu gün də Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar.

Bilirsiniz ki, Azərbaycanda gəncliyin inkişafı ilə bağlı dövlət proqramları həyata keçirilir. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir.

Dövlət başçısının Sərəncamı ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət Proqramı təsdiq edilərək həyata keçirildi. Eləcə də, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" haqqında Sərəncamın imzalanması Azərbaycanda gəncliyə diqqət və qayğının davamlı bir siyasət olduğunu bir daha təsdiqlədi.

Bununla yanaşı, ölkə Prezidenti tərəfindən Gənclər Fondunun yaradılması, "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi də əhəmiyyətli addımlardandır. Xüsusilə qeyd etmək istəyirəm ki, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da gənclər üçün böyük perspektivlər açır. Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Hesab edirəm ki, gənclər öz fəaliyyəti ilə dövlətin göstərdiyi etimadı doğrultmalıdırlar.

***- Yeni Azərbaycan Partiyasının gənclər siyasəti haqqında fikirlərinizi bilmək istərdik. Partiyamız gənclərin inkişafı üçün nə kimi addımlar atır?***

- Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası ölkəmizin və regionun ən güclü siyasi qüvvəsidir. Ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası ötən dövrdə şərəfli bir yol keçib, ümumxalq partiyasına çevrilib. Bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə partiyamız daha da inkişaf edir, güclənir. Təsadüfi deyil ki, hazırda YAP Cənubi Qafqaz regionunun ən güclü siyasi qüvvəsidir.

Xüsusilə qeyd etməliyəm ki, Yeni Azərbaycan Partiyası gəncliyin inkişafına yüksək diqqət yetirir. Həyata keçirilən bir çox layihələr, gənclərin tədbirlərinə dəstək verilməsi, onlar üçün geniş imkanların yaradılması buna əyani sübutdur. Təbii ki , partiyamızda gənclərin öz bilik və bacarıqlarının üzə çıxarılması üçün geniş imkanlar yaradılıb. Partiya rəhbərliyi intellektual, fəal gənclərin bir çox təşəbbüslərini dəstəkləyir və onların cəmiyyət həyatında daha aktiv iştirak etməsi hərtərəfli dəstək göstərir. Bütün bunlara görə, Azərbaycan gəncliyinin mütləq əksəriyyəti öz siyasi talelərini YAP-la bağlayırlar. Hazırda partiyada gənclərin təmsilçiliyi 40 faizə qədərdir. Bu gün partiyamızın üzvlərinin sayı 700 min nəfərdən çoxdur və yeni qoşulanların əksəriyyəti də məhz gənclərdir.

***- YAP Gənclər Birliyi daim ən müxtəlif mövzularla bağlı layihələr həyata keçirir. Bu baxımdan, ötən il təşkilatın fəaliyyətində əsas istiqamətlər nədən ibarət oldu?***

- Hər il olduğu kimi 2017-ci ildə də Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi əsas fəaliyyət istiqamətini ölkə Prezidentinin siyasi xəttinə dəstək, Azərbaycan həqiqətlərinin dünyada tanıdılması, ölkə gənclərinin sosial mühitə adaptasiyası, azərbaycançılıq ideologiyasının təbliği istiqamətində quraraq, il ərzində onlarla tədbir keçirib.

Belə ki, hər zaman olduğu kimi ötən il də partiyamızın Gənclər Birliyi Azərbaycan xalqı üçün həssas günlərdə olduqca tədbirli davranmış, xalqımızın başına gətirilən faciələri istər ölkə gənclərinə, istərsə də dünya ictimaiyyətinə çatdırıb. 20 yanvar faciəsinin növbəti ildönümü ilə əlaqədar olaraq, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin minlərlə üzvü Şəhidlər Xiyabanını ziyarət edərək, şəhid məzarları üzərinə tər qərənfillər qoyublar. Eyni zamanda Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "20 Yanvar - Şəhidlik zirvəsi" mövzusunda konfrans keçirilib.

Eyni zamanda, Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar YAP Gənclər Birliyi Zirə Mədəniyyət Mərkəzində tədbir keçirib. Belə ki, tədbirdə YAP Gənclər Birliyinin təşkilatçılığı ilə ərsəyə gətirilən "Xocalı" müsiqili-kompozisiyasının təqdimatı olub. Aprel döyüşlərindən sonra Cocuq Mərcanlı kəndinin bərpa prosesində YAP Gənclər Birliyinin üzvləri inşaat dəstələri yaradaraq, həmin kəndə səfər etmiş və bu prosesə də öz töhfələrini vermişlər.

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi gənclərin vətənpərlik ruhunun yüksəldilməsi, döyüş bacarıqlarının artırılması istiqamətində müxtəlif tədbirlər də həyata keçirib. Belə ki, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" ilə birgə təşkil etdiyi və aprel döyüşlərinə həsr olunmuş "Qələbədən Qələbəyə" adlı atıcılıq turniri,gənclərin vətənpərvərlik ruhunun artırılması istiqamətində atılmış praktiki addım idi. Eləcə də, "Qələbə yürüşü" keçirilib.

Hər il olduğu kimi ötən il də YAP Gənclər Birliyinin əsas fəaliyyət istiqamətlərindən birini Ulu öndər Heydər Əliyevin siyasi və mənəvi irsinin gənclər arasında təbliği tutmuşdur. Bu yöndə YAP Gənclər Birliyinin BSU-da keçirdiyi "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda elmi konfransı, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin Azərbaycan Velosiped İdmanı Federasiyası ilə birgə təşkil etdiyi Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Sağlam Gələcək" adlı velosiped turnirini, YAP GB-nin təşkilatçılığı ilə Milli Məclisdə "Heydər Əliyev milli parlamentimizin banisidir" mövzusunda "dəyirmi masa"nı, partiyamızın bir qrup gənc üzvünün Heydər Əliyev adına Neft Emalı Zavoduna etdiyi ekskursiyanı, Heydər Əliyev Mərkəzinə təşkil olunan ekskursiyanı, 15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar tədbirləri və s. qeyd etmək olar.

***- Seymur müəllim, müasir dövrdə, qloballaşma şəraitində hər bir cəmiyyətin qarşısında duran başlıca vəzifələrdən biri milli-mənəvi dəyərlərin qorunub saxlanması və müasir dəyərlərlə sintez olunmasıdır. Bu baxımdan, gənclərin qarşısında nə kimi vəzifələr dayanır?***

- Hər bir cəmiyyətin dinamikliyini qiymətləndirirəkən gənclərin potensialının necə səfərbər olunmasına, onların müasir qlobal çağırışlara hansı səviyyədə cavab verməsinə xüsusi diqqət yetirilir. Cəmiyyətin ən dinamik təbəqəsi olan gənclər siyasi, iqtisadi, humanitar, mədəni və digər çağırışlara cavab verməklə həm beynəlxalq inteqrasiya prosesinə mühüm töhfələr verirlər, həm də cəmiyyət daxilində sabitliyin, təhlükəsizliyin, ahəngdarlığın təmin olunmasına xüsusi rol oynayırlar. Gənclərin qlobal çağırışlara adekvat cavab verməsi məsələsindən bəhs edərkən, ilk növbədə, müasir dövrdə qarşıya çıxan çağırışların xarakteristikasına, mahiyyətinə diqqət yetirmək lazımdır.

Qeyd etdiyiniz kimi, müasir dövrdə, qloballaşma şəraitində hər bir cəmiyyətin qarşısında duran başlıca vəzifələrdən biri millimənəvi dəyərlərin qorunub saxlanması və müasir dəyərlərlə sintez olunmasıdır. Çünki qloballaşma prosesinin geniş vüsət aldığı indiki dövrdə milli-mənəvi dəyərlərin sıradan çıxması və ya "dəyərsizləşmə" sindromunun meydana çıxdığı müşahidə edilir. Belə olan halda, milli dəyərlərin qorunması və bunun əsasında gənclərin inkişafı və tərbiyəsinin təmin edilməsi strateji bir zərurətə çevrilir. Bu məsələnin Azərbaycan təcrübəsinə gəlincə, dövlətin yüksək səviyyəli diqqət və qayğısının fonunda mütəmadi olaraq inkişaf edən Azərbaycan gəncliyi həm milli-mənəvi dəyərlərin mənimsənilməsində, həm də təbliğində aktiv - dinamik təbəqə kimi çıxış edir. Əlbəttə, burada mədəniyyətin, tarixi dəyər və zənginliklərin beynəlxalq miqyasda təbliğ olunması da mühüm istiqamətlərdən biridir. Əsas məsələ isə budur ki, Azərbaycan gəncliyi bu kontekstdə dövrün tələb və reallıqlarına uyğun surətdə çevik və səmərəli fəaliyyət mexanizmi ilə milli inkişafa töhfələr verməlidir.

## <u>MSK sədri:</u> "Seçici siyahılarının dəqiqləşdirilməsi prosesi gedir"

Fevralın 1-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Xuan Rodriqo Labardini Floreslə görüşüb. MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən Trend-ə verilən məlumata görə, görüşdə M.Pənahov rəhbərlik etdiyi qurumun nüfuzlu beynəlxalq və xarici təşkilatlar, eləcə də dünyanın müxtəlif qitələrindən olan xarici ölkələrin diplomatik nümayəndəlikləri ilə sıx əməkdaşlığından söhbət açıb. O bildirib ki, beynəlxalq təcrübənin öyrənilməsi seçki praktikasının təşkmilləşməsində və hazırkı inkişaf səviyyəsinə çatmasında mühüm əhəmiyyət kəsb edir.



R.Labardini öz ölkəsindəki seçki prosesi haqqında ətraflı məlumat verərək Azərbaycanda keçiriləcək seçkilərlə maraqlanıb. Meksikalı diplomatın suallarını cavablandıran M.Pənahov ölkəmizin seçki sistemi haqqında ətraflı danışıb. MSK sədri, həmçinin diqqətə çatdırıb ki, bu il Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə əlaqədar Komissiya artıq seçki hazırlıqlarına başlayıb, ilkin mərhələdə seçici siyahılarının dəqiqləşdirilməsi prosesi gedir və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə bir sıra irimiqyaslı layihələr üzərində də iş aparılır. Görüşdə, həmçinin qurumlararası əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Gənclər Günü Azərbaycanın ictimai-siyasi həyatının əlamətdar hadisələrindən biridir"

## *YAP Gənclər Birliyinin 2017-ci il ərzindəki fəaliyyətinin yekunlarına və 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbir keçirilib*



***Fevralın 1-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin 2017-ci il ərzindəki fəaliyyətinin yekunlarına və 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.***

Sonra YAP Gənclər Birliiynin ötən il ərzindəki fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə gəncləri təbrik edib. Əli Əhmədov bildirib ki, Gənclər Günü Azərbaycanın ictimai-siyasi həyatının əlamətdar hadisələrindən biridir. Bu günün Ümummilli Lider Heydər Əliyev tərəfindən təsis olunduğunu xatırladan YAP Sədrinin müavini bu faktı Ulu Öndərimizin Azərbaycan gəncliyinə olan böyük etimadının və diqqətinin nümunəsi kimi dəyərləndirib.



Əli Əhmədov bildirib ki, 2017-ci ili Azərbaycan uğurla başa vurub və 2018-ci ilə böyük ümidlərlə daxil olub. YAP Gənclər Birliyinin 2017-ci ildəki fəaliyyətini yüksək qiymətləndirən Əli Əhmədovun sözlərinə görə, partiyamızın gəncləri cəmiyyətimizin fəal təbəqəsi kimi özlərini təsdiqləyiblər: "Gənclərimiz yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə fəallıq və yüksək vətənpərvərlik nümayiş etdirirlər. Bu fəallıq 2018-ci il üçün də böyük zəmin yaradıb. YAP gənclərinin xarakterini vurğulayarkən vətənpərvərlik, fəallıq, ictimai-siyasi proseslərdə iştirakçılıq xüsusi qeyd olunmalıdır. Eyni zamanda, Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətləri sırasındadır. Beləliklə, YAP-ın gəncləri hakim partiyanı layiqincə təmsil edə bilirlər. Onlar cəmiyyətdəki yerini və rolunu yaxşı bilir və öz rollarını qiymətləndirməyi bacarırlar. Bununla da, biz gənclərin simasında gələcəyin qurucularını görə bilirik. Bilirsiniz ki, ölkəmizdə əhalinin sayı hər il təxminən 100 min nəfər artır. Bu fakt əhalinin tərkibində



gənclərin çəkisinin nə qədər böyük olduğunu göstərir. Bu, həmçinin o deməkdir ki, gənclər nə qədər böyük potensiala malikdir və ölkənin gələcəyi gənclərin tutduğu mövqedən nə qədər asılıdır. Azərbaycan hökuməti bu reallıqları düzgün qiymətləndirir və buna uyğun olaraq da Azərbaycan Prezidenti tərəfindən uğurlu gənclər siyasəti keçirilir. Dövlətimiz gənclərin inkişafı, yüksək bilik və bacarıqlar əldə etməsi, onlar üçün layiqli həyat şəraitinin yaradılması üçün bütün zəruri addımları atır. Bu siyasət öz bəhrəsini verir. Gənclər bu siyasəti yüksək qiymətləndirir və onlara göstərilən diqqəti cənab Prezidentin siyasətinə və dövlətə sədaqətləri ilə təsdiq edirlər".

Əli Əhmədov qeyd edib ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda YAP Gənclər Birliyinin də rolunun artması bizi sevindirir: "Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, partiyamızın sıralarında gənclərimizin sayı artır və bu, özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini partiyamızla bağlayır, Prezident İlham Əli-



yevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər. Eyni zamanda, hesab edirəm ki, gənclər YAP-ın üzvü olmaqla bütövlükdə Azərbaycan cəmiyyətinin inkişafı prosesində iştiraklarına əhəmiyyətli bir təminat əldə etmiş olur, ölkəmizdə həyata keçirilən işlərə öz töhfələrini vermək imkanı qazanırlar. Bu, hər iki tərəf üçün - həm YAP, YAP Gənclər Birliyi üçün, həm də partiyaya daxil olan gənclər üçün qarşılıqlı faydalı münasibətlərdir. Nəticə etibarilə bu münasibətlər ümummilli maraqlarımıza xidmət etmiş olur. Gənclərimiz YAP-a daxil olmaqla, partiyamızın siyasətini dəstəkləyir, partiyanın gücünə imkanları daxilində töhfə verirlər. Eyni zamanda, təbii ki, gənclər YAP-ın sıralarında olmaqla öz fəallıqlarını cəmiyyətə təqdim edir, özlərini tanıdırlar. Bu da partiyamıza daxil olan gənclərimiz üçün çox əhəmiyyətlidir. Çünki bu gənclər YAP-ın sıralarında göstərdikləri ictimai-siyasi fəallıqları ilə özlərini cəmiyyətə təqdim edib gələcəyin ictimai-siyasi xadimləri kimi sağlam iddialarını ortaya qoymuş olurlar. Biz inanırıq ki, məhz bu gənclərin arasından gələcəyin çox dəyərli ictimai-siyasi xadimləri, həyatımızın bu və digər sahələrində əhəmiyyətli mövqelər tutan vətəndaşları, rəhbərləri yetişəcəklər. Beləliklə də, gənclər YAP-ın sıralarına qoşulmaqla özlərinin uğurlu gələcəyi üçün etibarlı meydan əldə edirlər. Təbii ki, həm Ümummilli Lider Heydər Əliyevin gənclər siyasətində, həm də bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi gənclərlə bağlı siyasətdə gənclərə nə qədər böyük önəm verildiyi cəmiyyətimizə məlumdur".

Baş nazirin müavini bildirib ki, biz gənclərimizə Azərbaycanın gələcəyi kimi, gələcək Azərbaycanın qurucuları kimi böyük ümidlərlə baxırıq. Biz istəyirik ki, gələcəyi quran insanların içərisində gənclər də fəal rol oynasınlar, daha geniş şəkildə bu prosesə öz töhfələrini versinlər. Bu həm də indiki dövrün zəruri tələbatıdır. Cəmiyyətin sürətlə dəyişdiyini, yeniləşdiyini deyən Əli Əhmədov yeni çağırışlara uyğun şəkildə fəaliyyət göstərmək zərurətinin yarandığını söyləyib. Onun sözlərinə görə, son illər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə gənclərə önəm verilməsi, gənclərin cəsarətlə irəliyə çəkilməsi məhz bu faktın göstəricisidir.

Əli Əhmədov qazanılan uğurlarla yanaşı gənclərin qarşısında bir sıra vəzifələrin dayandığını da diqqətə çatdırıb. Onun sözlərinə görə, ən böyük vəzifələrdən biri ölkənin ictimai-siyasi həyatında yaxından iştirakı fəal şəkildə davam etdirməkdir: "2018-ci ildə ölkəmizdə növbəti prezident seçkiləri keçiriləcək. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin növbəti dəfə namizədliyi partiyamız tərəfindən irəli sürüləcək. Güman edirəm ki, gənclərimiz həmişə olduğu kimi bütün seçkilərdə göstərdiyi fədakarlığı bu dəfə də göstə-

# “Gənclər Günü Azərbaycanın ictimai-siyasi həyatının əlamətdar hadisələrindən biridir”

## *YAP Gənclər Birliyinin 2017-ci il ərzindəki fəaliyyətinin yekunlarına və 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbir keçirilib*










rəcəklər və prezident seçkilərinin yüksək səviyyədə həyata keçirilməsi üçün öz töhfələrini verəcəklər. Əlbəttə, Prezident İlham Əliyevin ölkəmizdə yüksək nüfuzu, xalqımız tərəfindən dəstəklənməsi Onun növbəti dəfə dövlət başçısı seçilməsi üçün etibarlı bazadır. Amma YAP-ın üzərinə düşən vəzifə ondan ibarətdir ki, bu seçkilərin yüksək demokratik prinsiplər əsasında keçirilməsi üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirsin. Güman edirəm ki, bu baxımdan, YAP-ın gəncləri bu vəzifəni dərindən dərk edirlər və seçki kampaniyasında fəal iştirak edəcəklər”.

YAP Sədrinin müavini gənclərin qarşısında duran vəzifələr sırasında ölkəmizdə geniş vüsət alan könüllülər hərəkatında daha yaxından iştirak etməli olduqlarını söyləyib. Onun fikrincə, könüllülər hərəkatı gənclərin fəallığının artırılması baxımdan geniş imkanlar açır: “YAP-ın üzvü olaraq gənclər bu hərəkatda yaxından iştirak edirlər və müəyyən təcrübə toplayıblar. Amma nəzərə alsaq ki, ölkəmizdə könüllülər hərəkatı böyük vüsət alıb, bu mənada gənclərimiz bu prosesdə daha fəal iştirak etməlidir”.

Baş nazirin müavini qyed edib ki, həyatımız inkişaf edir, yeniləşir və bu yeniliyə uyğun addımlar atılır. Bu baxımdan, gənclərin sosial şəbəkələrdə də fəal iştirak etməsi həyati əhəmiyyət kəsb etməyə başlayıb. “Bir neçə onillik keçəndən sonra yəqin ki, ənənəvi siyasi mübarizə metodlarından əsər-əlamət qalmayacaq. Bu mənada ictimai-siyasi proseslərdə sosial şəbəkələrin əhəmiyyətini qiymətləndiririk. YAP Gənclər Birliyi sosial şəbəkələrdə yaxından iştirak edir və gəncləri-miz fəallıq göstərirlər. Biz müsbət nəticələr əldə etsək də, bununla kifayətlənmək mümkün deyil. Həyatımız qaçılmaz surətdə dəyişir, yeni texnologiyalardan asılı vəziyyətə düşür. Həyatımız tələb edir ki, gənclər daha geniş şəkildə bu və ya digər mesajların cəmiyyətə çatdırılmsında sosial şəbəkələrdən daha aktiv istifadə etməlidirlər. Ümumilikdə, gənclər boş vaxtlarının böyük hissəsini sosial şəbəkələrdə keçirirlər. Çünki bu, həyatımızın ayrılmaz hissəsinə çevrilib. Amma yaxşı olar ki, onlar burada ictimai, siyasi və sosial məsələləri əhatə edən mövzulara toxunsunlar. Gənclərimiz ölkənin gələcəyinə biganə deyillər və ona görə də, ölkəmizə həyata keçirilən siyasətin uğurlarını sosial şəbəkələr vasitəsilə təbliğ etməlidir. Eyni zamanda, ölkəmizin inkişafını gözü götürməyən qüvvələrin atdığı böhtanlara cavab verməlidirlər. İstərdik ki, bu baxımdan gənclərimiz ön mövqelərdə dayansınlar. Güman edirəm ki, 2018-ci il bu sahədə dönüş ili olacaq və Gənclər Birliyi 2018-ci ilin hesabatını verərkən sosial şəbəkələrdə fəallığın daha yüksək olmasına şahidlik edəcəyik”.

YAP Sədrinin müavini bildirib ki, biz gənclərimizlə qürur duyuruq, onların dövlətçiliyə, Prezidentin siyasətinə sədaqətinə inanırıq. “Gənclər əmin olmalıdırlar ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin hədəflərindən biri gənclərin hərtərəfli inkişafı və onlara layiqli həyat şəraitinin yaradılmasıdır. Bunun üçün dövlətimizin tərəfindən bütün imkanlar yaradılır. Prezident İlham Əliyevin bu istiqamətdəki siyasəti YAP-ın fəaliyyətində də əksini tapır. Partiyamız gənclərin fəallığını təmin etmək, onların öz bilik və bacarıqlarını üzə çıxarmaq, bütövlükdə özlərini ifadə etmək üçün bütün imkanları yaradır. Əmin olmalısınız ki, YAP bundan sonra da sıralarında birləşən 270 mindən çox gəncin inkişafı üçün ən böyük platformadır və partiyamızın əzəmətli resursları gənclərin inkişafı üçün hər bir imkanı təmin edir”-deyən Əli Əhmədov YAP Gənclər Birliyinin 2018-ci ildə də qarşıda duran vəzifələri yerinə yetirəcəyinə əminliyini ifadə edib.

Tədbirdə YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin üzvü Arzu Məmmədli, YAP Sabirabad rayon təşkilatı Gənclər Birliyinin üzvü, ADA Universitetinin tələbəsi Emil Aslanlı, BANM-ın tələbəsi, qəbul imtahanlarında 700 bal toplamış Mahirə Əsədzadə, IV İslam Həmrəyliyi Oyunlarının qalibi Zaur Paşayev və YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin üzvü Əli Babazadə çıxış ediblər. Çıxışlarda bildirilib ki, hazırda Yeni Azərbaycan Partiyası 700 mindən çox insanı öz ətrafında birləşdirir. Bu, xalqımızın Heydər Əliyev ideyalarına sadiqliyinin və Prezident İlham Əliyevin siyasətini dəstəkləməsinin göstəricisidir. Qeyd olunub ki, YAP-ın üzvləri arasında həmçinin gənclər də böyük üstünlük təşkil edirlər və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də Azərbaycanın sağlam, intellektual gənclərindən ibarətdir. Ümumiyyətlə, Ulu Öndərin ideyalarına sadiq qalan və cənab Prezidentin rəhbərlik etdiyi YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib.

O da qeyd olunub ki, Azərbaycan gəncliyinin seçiminin Yeni Azərbaycan Partiyası olmasının da arxasında məhz dövlətçiliyə bağlılıq, milli mənafenin qorunması kimi müqəddəs ideallar dayanır. YAP Ulu Öndər Heydər Əliyev ideyalarının daşıyıcısı, müasir Azərbaycan gəncliyinin güvənc yeridir. Azərbaycan gəncliyinin mütləq əksəriyyəti Ulu Öndər ideyaları ətrafında sıx birləşərək sadiqlik nümayiş etdirir. Gənclərimiz hər zaman Prezident İlham Əliyevin ətrafında sıx birləşərək Onun həyata keçirdiyi siyasəti dəstəkləyirlər.

Sonra tədbirdə YAP sıralarına yeni qoşulmuş bir qrup gəncə üzvlük vəsiqələri, eləcə də, ötən il YAP Gənclər Birliyinin fəaliyyətində aktivliyi ilə seçilmiş gənclərə Fəxri fərman və hədiyyələr təqdim olunub. Tədbir konsert proqramı ilə davam edib.

# "Azərbaycan hüquqi-demokratik və qanunun aliliyinin təmin olunduğu ölkədir"



***Müasir dünyamızı kütləvi informasiya vasitələri - qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və s. olmadan təsəvvür etmək mümkün deyil. Qloballaşma dövründə cəmiyyətin inkişafına ciddi təsir göstərən, dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilən və dördüncü hakimiyyət kimi qəbul edilən kütləvi informasiya vasitələri ictimai fikrin formalaşdırılmasında mühüm rol oynayır. Bu baxımdan, müstəqil dövlətimizdə kütləvi informasiya vasitələrinin azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görülür.***

Ölkəmizdə demokratikləşmə istiqamətində həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsi kimi söz azadlığının təmin edilməsi və mətbuatın inkişafı üçün bütün zəruri addımlar atılır. İlk olaraq,vurğulayaq ki, Azərbaycan Respublikasının Konstitusiyasında informasiya azadlığı və onun təmin olunması dövlətimizin ali məqsədlərindən biri kimi təsbit edilməsi heç də təsadüfi deyildi. Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Qeyd edək ki, 1991-ci il 18 oktyabr tarixli "Azərbaycan Respublikasinin dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda vətəndaşların söz, fikir və mətbuat azadlıqları təsbit edilsə də, müəyyən səbəblər üzündən ölkənin yeni formalaşan mətbuat orqanları ciddi çətinliklərlə üzləşdir. 1992-ci ildə hərbi senzura adı altında mətbuat üzərində nəzarət daha da gücləndirildi. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra Azərbaycan mətbuatının inkişafında yeni bir dövr başlandı. 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında ölkə vətəndaşlarının təhlükəsiz yaşamaq, söz, fikir və vicdan azadlığı təsbit edildi. Bir il sonra 1996-cı il noyabrın 15-də "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra Nazirlər Kabineti yanında Dövlət Sirlərini Mühafizə edən Baş İdarənin ("Qlavlit") iş metodlarında müsbətə doğru ciddi dəyişikliklər edildi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" isə vətəndaşların konstitusiyada əksini tapmış söz, mətbuat və fikir azadlıqlarının təminatına əlverişli imkanlar açdı. Qeyd edilən Dövlət Proqramından az sonra Azərbaycan Prezidentinin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu və qeyd olunun Sənədlə informasiya vasitələri üzərində senzura ləğv edildi.

Ulu Öndərin 2000-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" isə, bu sahənin maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynadı.

## ÖLKƏMİZDƏ MƏTBU NƏŞRLƏRİN SƏRBƏST FƏALİYYƏTİNƏ, JURNALİSTLƏRİN ÖZ İRADƏLƏRİNİ AZAD ŞƏKİLDƏ İFADƏ ETMƏLƏRİNƏ HƏR CÜR İMKAN YARADILIB

2003-cü ildən sonra ölkəmizin dinamik inkişaf mərhələsinə qədəm qoymasına nail olan Prezident İlham Əliyev söz və mətbuat azadlıqlığını daim diqqət mərkəzində saxlayır. Dövlət başçısı respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə və jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə hər cür imkan yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları ölkəmizdə mətbuata göstərilən dövlət qayğısının davamlı və sistemli səciyyə daşıdığını təsdiqləyir. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Fərmanı da, məhz ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasında əksini tapmış məsələlərin, praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Sərəncamla, həmçinin, "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu haqqında Nizamnamə" təsdiq edilmişdir. Jurnalistlərin mənzil probleminin həlli istiqamətində atılan addımlar mətbuat işçilərinin dövlət hesabına yeni mənzillərlə təmin olunması dünya miqyasında analoqu olmayan bir addımdır. 2005, 2010 və 2015-ci illərdə Azərbaycan milli mətbuatının yaranmasının 130, 135 və 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif edilməsi, fəxri adlar alması, habelə, kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə verilən yüksək qiymətin göstəricisidir.

Həyata keçirilən tədbirlər ölkə jurnalistlərinin böyük razılığı, minnətdarlığı ilə qarşılanır. Bunun nəticəsidir ki, Prezident İlham Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

## "HÜQUQİ DÖVLƏTİ AZAD MƏTBUATSIZ TƏSƏVVÜR ETMƏK MÜMKÜN DEYİLDİR"

Azad mətbuatın fəaliyyətinin getdikcə gücləndirilməsi cəmiyyətin hər bir üzvünün öz fikrini sərbəst şəkildə ifadə etməsinə imkan verir. Bu da mətbuat və söz azadlığının təmin olunmasında mühüm amildir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd edib ki, biz, sözün əsl mənasında, azad, müasir və demokratik-hüquqi dövlət qururuq: "Hüquqi dövləti azad mətbuatsız təsəvvür etmək mümkün deyildir. Məhz buna görə Azərbaycanda söz azadlığı və vicdan azadlığı, plüralizm meyilləri gücləndirilməlidir. Azərbaycan dövləti və Azərbaycan iqtidarı, əlbəttə, bu sahədə öz işini elə qurmalıdır ki, bu azadlıqlar Azərbaycanda tam şəkildə bərqərar olunsun. Son illər ərzində görülmüş işlər, onu göstərir ki, biz düzgün yolla addımlayırıq".

Bu gün belə diqqət və qayğı ilə əhatə olunan fikir və söz adadlığına malik olan Azərbaycan mətbuatı ətrafında yaraşmayan, yanlış ifadələri söyləmək, əlbəttə ki, qərəzli münasibəti əks etdirir. Mütərəqqi dəyərlər əsasında inkişafda olan Azərbaycan mətbuatına qarşı heç bir qadağa qoyulmur və güc işlədilmir. Bu sahənin inkişafına qayğı gündən-günə artırılır. Amma nədənsə, bu yaxınlarda ATƏT-in media ofisinin rəhbəri Harlem Dezirin Azərbaycanda söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin vəziyyəti ilə bağlı "Amerikanın səsi" radiosuna verdiyi müsahibəsi Azərbaycan reallıqlarını əks etdirmir. Azərbaycanın mediası, KİV-ləri ilə bağlı məlumatı olmayan bir kəsin yanlış fikirlər söyləməsi, əlbəttə ki, obyektivliyi əks etdirə bilməz. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ATƏT-in media ofisinin rəhbəri Harlem Dezirin Azərbaycanda söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin vəziyyəti ilə bağlı "Amerikanın səsi" radiosuna verdiyi müsahibəsində onun bəzi fikirlərinə əsaslandırılmış bir şəkildə münasibət bildirib. O, təəssüf hissi ilə qeyd edib ki, bir sıra xarici dairələr və onların nəzarətində olan beynəlxalq QHT və KİV-lərin Azərbaycanda söz və məlumat azadlığının vəziyyəti ilə bağlı qərəzli və subyektiv iddiaları ATƏT kimi mötəbər beynəlxalq qurumun rəsmi nümayəndələri tərəfindən də, heç bir araşdırma aparmadan təkrarlanır.

Harlem Dezir Azərbaycanla bağlı açıqlamasının arxasında heç bir əsas dayanmır. Azərbaycana bir dəfə də səfər etməyən bir şəxsin bu ölkə, onun söz və məlumat azadlığı haqqında fikirləri qəbuledilməzdir. Əli Həsənov bildirib ki, Azərbaycanda söz və məlumat azadlığı təmin edilib, bu sahəni tənzimləyən beynəlxalq standartlara uyğun qanunvericilik bazası formalaşdırılıb, yüzlərlə kütləvi informasiya vasitəsi sərbəst fəaliyyət göstərir, əhalinin 82 faizinin internetə çıxışı vardır: "Buna görə də, Azərbaycanda media azadlığının durumundan narahatlıq ifadə etmək, guya KİV-lərin qarşısının alınması, jurnalistlərin işgəncələrə məruz qalması, hüquq müdafiəçilərinin həbs edilməsi və cəzasızlıq mühitinin mövcud olması ilə bağlı iddialar irəli sürmək yanlış mövqedir və mövcud reallıqla tam ziddiyyət təşkil edir".

## "...HESAB EDİRƏM Kİ, HARLEM DEZİR VƏ ONUNLA HƏMRƏY OLAN MARAQLI DAİRƏLƏR ÖZ MÖVQEYİNDƏ DAHA BALANSLI VƏ OBYEKTİV OLMALI, AZƏRBAYCANA QARŞI TENDENSİOZ YANAŞMAYA YOL VERMƏMƏLİDİRLƏR"

Bu gün Ulu Öndərin mətbuat və söz azadlığı sahəsindəki mütərəqqi siyasəti Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün hərtərəfli şərait yaradılır. ATƏT-in media azadlığı ofisi kimi təşkilatın qərəzli fikirləri təəssüf doğurur. Bugünkü dünya qərəzi və yalanı çox gözəl dərk edir. Xüsusilə də, Azərbaycan kimi dünyaya açıq ölkə haqqında qərəzli mövqeləri ifadə etmək yalnız cəfəngiyatdır. Əli Həsənov bildirib ki, inkişaf etmiş Avropa ölkələrində jurnalistlərə qarşı dözülməz hallar baş verir, onların fəaliyyəti məhdudlaşdırılır, həbs olunur, insanların öz fikirlərini sərbəst şəkildə ifadə etmək hüququnun qarşısı ən sərt metodlarla alınır: "Amma təəssüf ki, belə hallar həm beynəlxalq jurnalist təşkilatlarının, həm də ATƏT-in diqqətini cəlb etmir. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, Harlem Dezir və onunla həmrəy olan maraqlı dairələr öz mövqeyində daha balanslı və obyektiv olmalı və Azərbaycana qarşı tendensioz yanaşmaya yol verməməlidirlər".

Dünya Azərbaycanı dərk edir, onun söz və nüfuz sahibi olması, mütərəqqi demokratik dəyərlərə sahib olması, birmənalı tərzdə qəbul olunur. Reallıqlara əsaslanmayan məlumatlar yaymaq artıq sifarişlərin və qərəzli mövqeyin açıq-aydın göstəricisidir. "Azərbaycan hüquqi-demokratik və qanunun aliliyinin təmin olunduğu ölkədir" - deyən Əli Həsənov bildirib ki, vəzifəsindən, sosial statusundan asılı olmayaraq, hər bir kəs, o cümlədən də, qanunları, jurnalist etikasını və normalarını pozan, KİV nümayəndəsi adı altında qeyri-qanuni əməllərlə məşğul olan hər bir şəxs buna görə cavabdehlik daşımalıdır: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev jurnalistlərlə çoxsaylı görüşlərində dəfələrlə jurnalist məsuliyyətinin əhəmiyyətinə toxunub, media nümayəndələrini obyektiv olmağa, başqa-başqa dairələrin əlində vasitəyə çevrilməməyə çağırıb. Bu, Azərbaycan dövləti və cəmiyyəti üçün prinsipial məsələdir".

Təbii ki, müasir dövrdə müəyyən maraqlara xidmət edən, xüsusi dairələrin sifarişi ilə fəaliyyət göstərənlər Azərbaycana qarşı belə qərəzli mövqenin ifadəçiləridirlər. Asılılıq onları bu fikirləri səsləndirməyə sövq edir. Ölkəmizdə mətbuatın müstəqilləşməsi, obyektivlik və tərəfsizlik nümayiş etdirməsi, qərəzdən-böhtandan uzaq olması, milli-mənəvi dəyərlərə hörmətlə yanaşması ilə bağlı ciddi addımlar atılıb. Bütün görülən işlərin məntiqi nəticəsi olaraq, artıq Azərbaycan mediası müasir dövrün tələblərinə uyğun inkişaf mərhələsinə qədəm qoyub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 2 Fevral Ümumrespublika Gənclər Günüdür

## Gəncliyə dövlət qayğısı uğurlu sabaha hesablanan bir siyasətdir

**_Bu gün Azərbaycan dinamik inkişaf edən ölkədir. Onun xarici görkəmini dəyişən tikililər, günü-gündən güclənən milli ordu, möhkəm və etibarlı siyasət dövlətin gələcəyinə uğurla və inamla addım atmağa şərait yaradır. Qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə formalaşdığı hazırkı mərhələ ölkəmizdə sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrə gənclərin daha fəal iştirakının yüksəldilməsini tələb edir. Məhz buna görə də, cəmiyyətin maraqlarının təmin edilməsi və ölkə iqtisadiyyatının rəqabətə davamlılıq qabiliyyətinin artırılması üçün gəncliyin innovativ potensialından geniş istifadə olunmasına əlverişli zəmin yaradılıb._**



Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti Sovet məkanında yaşadığımız illərə təsadüf edir. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirir. Bu siyasətin, davamı olaraq, Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqillik dövründə gənclər siyasətinə xüsusi önəm verərək, onların təşkilatlanmasına xüsusi diqqət ayırır. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb həyata keçirildi. Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, fevralın 2-də Azərbaycan Gənclər Gününün elan edilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə, dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi.

### AZƏRBAYCAN GƏNCLƏRİ CƏMİYYƏTİN İNKİŞAFINA ÖZ TÖHFƏLƏRİNİ VERİRLƏR

Dövlət başçısının gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açır. Dövlət Proqramı çərçivəsində gənclərə dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssisəsində təhsil almaq imkanı verilib. Dövlət Proqramının əsas məqsədi qısa perspektivdə ölkəmizin yüksək rəqabət qabiliyyətli kadrlara olan tələbatını ödəmək olduğundan, bu ilki seçimlərdə bakalavriatdan sonrakı təhsil səviyyələrinə üstünlük verilib. Tələbələr əsasən, Türkiyə, Böyük Britaniya, Rusiya, ABŞ və digər ingilisdilli ölkələrdə təhsil almağa üstünlük verirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inam bəsləyir: "... Hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır. Ona görə mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır".

İctimai-siyasi proseslərdə fəal iştirak edən Azərbaycan gəncliyi müstəqil dövlətçilik ənənələrini yüksək tutur. Dövlət başçısı İlham Əliyevin 2011-ci il 6 aprel tarixli "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı haqqında" Sərəncamı gənclər siyasətinin davamı kimi qiymətləndirilib. Sərəncamın əsasında gənclər siyasəti daha da inkişaf etdirilərək, gənclərin müxtəlif sahələrdə fəal iştirakına şərait yaradırdı. Gənclik cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqə olduğundan, dövlət tərəfindən gənclərin qabiliyyət və intellektual qabiliyyətlərinin üzə çıxarılmasına geniş imkanlar açılır.

### AZƏRBAYCANIN DÜNYA DÖVLƏTLƏRİNƏ İNTEQRASİYASININ SÜRƏTLƏNMƏSİ VƏ İQTİSADİ YÜKSƏLİŞİ GƏNCLİYİN QARŞISINDA PERSPEKTİVLƏR AÇIR

Gənclərə olan diqqət və gənclər siyasətinin, davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etməkdə növbəti bir addım oldu. Ölkə başçısının "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı haqqında Sərəncamı Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək məqsədini daşıyır. Gənclərə ayrılan bu diqqətin və qayğının nəticəsidir ki, Azərbaycan gəncləri bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Göründüyü kimi, müasir dövrümüzdə gənclərin bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnmələri, peşə hazırlığının yüksəldilməsi məqsədi ilə, ardıcıl olaraq, tədbirlər həyata keçirilir. Sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən, gənc ailələrin problemlərinin həllinə köməklik göstərilir. Dövlət-gənclər siyasətindən irəli gələrək, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlər təşkil olunur, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakına, gənclər üzrə təşkilatların formalaşmasına və inkişafına diqqət yetirilir. Bu da, bir faktdır ki, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulmasına kömək göstərilir.

Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanmaları da uğurla gedir. Bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da, beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilib. Bu təşkilatların istər Azərbaycanda, istər ölkədən kənarda keçirdiyi tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır. Hər bir əlamətdar gündə yaşadıqları ölkənin küçələrində Azərbaycan bayrağını ucaldırlar. Azərbaycan reallıqlarını dünyaya çatdıran, onun həqiqətlərinə göz yuman insanlara reallıqları təqdim edən, məhz elə gənclərdir.

Bu, Azərbaycan gənclərinə yaradılan şəraitdir. Azərbaycan gəncliyi sürətli inkişafa meyillidir. Bu reallıqların əsasında dayanan dövlətin gənclər siyasəti, onlara maddi və mənəvi cəhətdən göstərdiyi qayğıdır. Azərbaycanın durmadan inkişafı, dünya dövlətlərinə inteqrasiya prosesinin sürətlənməsi, iqtisadi yüksəliş kimi nailiyyətlər gəncliyin qarşısında perspektivlər açmaqla yanaşı, onları stimullaşdırır. Bu gün həyata keçirilən siyasət, uğurlu iqtisadi islahatlar və iqtisadiyyatın inkişaf tempi müasir gənclərin düşüncələrinin formalaşmasına birbaşa təsirini göstərir. Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə, Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

**_ZÜMRÜD_**

---

# Tağı Əhmədov - böyük ürəkli insan

## YAP Yasamal rayon təşkilatında Tağı Əhmədovun 70 illik yubileyi keçirildi



Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında təşkilatın sədri, Azərbaycan Respublikasının Əməkdar mühəndisi, "Şöhrət" ordenli Tağı Əhmədovun 70 illik yubileyi keçirilib. Tədbiri giriş sözü ilə açan Bakı Dövlət Universitetinin rektoru, professor Abel Məhərrəmov qeyd edib ki, Tağı Əhmədovun adı bu gün hər bir azərbaycanlı üçün əziz və dəyərlidir. Belə ki, bu böyük qəlbli insan bütün dövrlərdə öz xeyirxahlığı, əməksevərliyi və məsuliyyəti ilə tanınıb və sevilib. Bu gün onu tanıyan hər bir kəs gözəl atalıq və ailə nümunəsi görür və örnək götürür. Eyni zamanda, Tağı Əhmədovun Yasamal rayonunda elmin və maarifləndirmənin istiqamətində gördüyü işlər ətrafında fikir bildirildi. Qeyd olundu ki, bu gün Tağı Əhmədov, eyni zamanda, BDU-da kafedraya rəhbərlik edərək, gənc nəslin yetişməsində töhfələrini verməkdədir.

Sonra böyük monitorda Tağı Əhmədovun keçdiyi həyat yollarını əks etdirən fotoların görüntüləri tədbir iştirakçılarına göstərilib.

Çıxış edən BDU-nun İlahiyyat fakültəsinin dekanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Vasim Məmmədəliyev bildirdi ki, Tağı Əhmədov öz nümunəvi keyfiyyətləri ilə hər kəsin ürəyində özəl yer tutmuş, o cümlədən, nəhəng dünyagörüşünə malik olan bir şəxsiyyətdir. Vasim Məmmədəliyev qeyd edib ki, Tağı Əhmədov yalnız siyasi-ictimai sahədə deyil, həm də yaradıcılıq potensialına görə seçilən insanlardandır və bu gün də, o, yorulmadan hər bir işin öhdəsindən layiqincə gəlməkdədir.

Həmçinin, bildirildi ki, Tağı Əhmədov yaradıcılığı da, bu gün onu tanıyanlara xüsusi ovqat bəxş edir. Belə ki, onun Tağı Sadiq təxəllüsü ilə yazdığı şeirləri və çapa çıxarılmış dörd kitabı insanların könüllərini oxşayır.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova da yubilyar haqqında xoş sözlər deyərək, Tağı Əhmədovun yüksək keyfiyyətlərindən bəhs edib.

YAP Yasamal rayon təşkilatının sədr müavini İbrahim Mehdiyev isə, çıxışında vurğulayıb ki, Tağı Əhmədov kimi ziyalı, yaradıcı və ictimaiyyətçi şəxsiyyətlə çiyin-çiyinə çalışmaq böyük şərəfdir və bütün bunları o öz insansevərliyi, göstərdiyi diqqət və qayğısı nəticəsində əldə edib. T.Əhmədovun Ulu Öndər Heydər Əliyev ideyalarına daim sadiq qaldığını xatırladan İ.Mehdiyev yubilyarın bu gün Prezident Cənab İlham Əliyevin yürütdüyü siyasətinin ən bariz dəstəkçisi olduğunu, dövlətçilik və partiya yolunda əzmlə çalışmaqda davam etdiyini, bundan sonra hələ çox uğurlar əldə edəcəyini əminliklə bildirib.

"SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev də, öz növbəsində, Tağı Əhmədovun uzun illər göstərdiyi fəaliyyəti ətrafında geniş çıxış edərək, onun həyat yolu haqqında fikirlərini bildirdi, rəhbərlik etdiyi redaksiya kollektivi adından ürəkdən təbrik etdi. O bildirdi ki, Tağı Əhmədov öz örnək iş xüsusiyyətləri ilə bu gün də yüksək nümunəviliyi ilə seçilir.

Digər çıxış edənlər - YAP Gənclər Birliyinin sədri Seymur Orucov və başqaları da Tağı Əhmədovu 70 illik yubileyi münasibəti ilə təbrik edərək, ona həyatında can sağlığı və fəaliyyətində müvəffəqiyyətlər arzuladılar.

Yubilyar Tağı Əhmədov da, öz növbəsində, onu təbrik edən hər kəsə minnətdarlıq edərək, hər birinə öz dərin təşəkkürlərini bildirdi.

Tədbir Azərbaycanın tanınmış mədəniyyət və incəsənət ustalarının bir-birindən maraqlı musiqili kompozisiyaları ilə müşayiət olundu.

**_Rövşən RƏSULOV_**

# YAP Qaradağ rayon təşkilatında Gənclər günü qeyd edilib

**2** ***Fevral Ümumrespublika Gənclər Günüdür. SİA-nın verdiyi məlumata görə, əlamətdar gün münasibətilə dünən Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatının gənclər birliyi rayon gənclər və idman idarəsi ilə birlikdə tədbir kecirib.***



Tədbirdə qonaq qismində YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydin Hüseynov, Bakı şəhəri gənclər və idman baş idarəsinin rəisi Raqif Abbasov, Qaradağ rayon icra hakimiyyəti başçısının müavini Emil Abbasov iştirak ediblər. Açılış nitqi ilə rayon gəclər və idman idarəsinin rəisi Elçin Abbasov çıxış edərək Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətindən danışıb: “İndi həmin siyasət daha qətiyyətlə həyata keçirilir. Bu gün ölkəmizin hər yerində Azərbaycan gəncləri öz bayramlarını böyük uğurlarla qeyd edirlər”.



Millət vəkili Aydin Hüseynov çıxış edərək bildirib ki, ölkəmizdə gənclər siyasətinin əsasını Ümummilli Lider Heydər Əliyev qoyub: “Ulu öndər gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verirdi, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirirdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan gəncləri günü elan edilməsi, 5 dövlət proqramının qəbulu, “Dövlət gənclər siyasəti haqqında” fərman və geniş fəaliyyət proqramının təsdiq edilməsi Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi”.

Bakı şəhəri Gənclər və idman baş idarəsinin rəisi Raqif Abbasov çıxış edərək bildirib ki, 2 Fevral Azərbaycan gənclərinin hesabat günüdür: “Biz artıq 21 ildir Azərbaycanda Gənclər Gününü qeyd edirik. Bu bayram Ümummilli Lider Heydər Əliyev tərəfindən xalqımıza ərməğan olunub. Bu gün Azərbaycan gəncləri bütün sahələrdə uğurla fəaliyyət göstərirlər. Azərbaycanın vətənpərvər, dövlətinə sədaqətli, savadlı gəncliyi var. Ölkəmizdə bu sahənin inkişafı üçün uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Gənclər və İdman Nazirliyi, onun aidiyyəti qurumları, tələbə gənclər hərəkatları, Gənclər Təşkilatları Milli Şurası, qeyri-hökumət təşkilatları və digər qurumlar cənab Prezidentin apardığı uğurlu dövlət siyasətinin bu sahəsi üzrə tapşırıqları uğurla yerinə yetirirlər. Azərbaycan gəncləri Vətənin daha da inkişafı uğrunda əlindən gələni edir və işğalda olan torpaqlarımızın azad olunması üçün hər an hazırdırlar. 2016-cı ildəki Aprel döyüşləri bunu bir daha sübut etdi. Azərbaycan gəncliyi cənab Prezidentin daxili və xarici siyasətini dəstəkləyir və hər zaman Onun yanındadır. Gənclərimiz ölkəmizdə və xaricdə keçirilən bütün beynəlxalq tədbirlərdə yüksək səviyyədə iştirak edirlər”.

Rayon icra hakimiyyəti başçısının müavini Emil Abbasov çıxışında qeyd edib ki, Ulu Öndərin gəncliyə və gənclərə etimadı indi öz təsdiqini tapmaqdadır: “Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir”.

YAP Qaradağ rayon təşkilatının gənclər birliyinin sədri Ramiz Yusubov çıxış edərək bildirib ki, dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib: “Bölgələrdə də olimpiya komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiada və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Gənclərin məşğulluğunun təmin olunması üçün də mühüm addımlar atılır. Bu diqqət gənclərin fəallığını daha da artırır, onları səfərbər edir. İndi ölkəmizdə dövlət qeydiyyatından keçən 170-dən çox gənclər təşkilatı fəaliyyət göstərir, minlərlə gənc lider yetişib”.

Rayon təşkilatının gənclər birliyinin üzvləri Könül Əhmədova və Namiq Vəliyev çıxış edərək Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanmasından danışıblar. Bildiriblər ki, bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilib. Tədbirin sonunda bir qrup fəal gənc Fəxri fərmanla təltif edilib.

# Xaçmazda 2 Fevral Gənclər Günü münasibətilə tədbir keçirilib



Dünən YAP Xaçmaz rayon təşkilatının gənclər birliyi rayon Gənclər və İdman İdarəsi Heydər Əliyev Mərkəzi ilə birgə 2 Fevral Gənclər Günü münasibətilə tədbir keçirmişdir. Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının gənclər birliyinin sədri Emil Tağıyev açaraq, ölkəmizin gənclər siyasəti haqqında geniş məlumat vermişdir. Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini Sevinc Sədullayeva, Gənclər və İdman İdarəsinin böyük məsləhətçisi Elman Məmmədov, YAP Gənclər Birliyinin üzvü Amil Rəhimov, gənclərdən Vəfa Məmmədova, Ülkər Lətifova, YAP Xaçmaz rayon təşkilatının sədr müavini Emin Ağayev və digərləri çıxış edərək, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, Möhtərəm Prezidentimizin hər an gənclərə dəstək olmasından, gənclərin rayonun ictimai-siyasi həyatında fəallıqlarından və bununla bağlı keçirilən tədbirlərdən geniş məlumat verdilər.



Sonda fəal gənclər fəxri fərmanlarla təltif edildi.

**ZÜMRÜD**

# Azərbaycan gəncliyi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub

*YAP Laçın rayon təşkilatı Gənclər və İdman İdarəsiylə birgə 2 Fevral Gənclər Günü ilə bağlı gənclərlə görüş keçirib*

Laçın rayonundan olan məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində 2 Fevral Gənclər Günü münasibətilə ümumrayon tədbiri keçirilib. Tədbir iştirakçıları Laçın rayon icra hakimiyyətinin inzibati binasının qarşısında Ulu Öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış büstü və Taxtakörpü qəsəbəsində olan Şəhidlərin Xatirə Kompleksi ziyarət olunub və önünə gül dəstələri düzülüb.





Təhsil Şöbəsinin akt zalında davam etdirilən tədbir rayon gənclər və idman idarəsinin rəisi Natiq Mustafayev tərəfindən açıq elan edildikdən sonra, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra rayon gənclərini bu əlamətdar bayram günü münasibəti ilə təbrik edən natiq “Gənclər Günü” barədə Ulu Öndər Heydər Əliyevin tarixi Sərəncamının əhəmiyyəti və bu sahədə ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlərlə bağlı geniş məlumat verilib. Tədbirdə çıxış edən Laçın RİH başçısının müavini, Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının sədri İlqar İlyasov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasətindən və bu siyasətin Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən söhbət açaraq, dövlət-gənclər siyasəti sayəsində əldə edilmiş nailiyyətlər barədə gənclərə geniş məlumat verib, xüsusilə, ordumuzun qüdrətlənməsindən və orduda olan planlı inkişafın tez bir zamanda ərazi bütövlüyümüzün təmin olunması ilə nəticələnəcəyinə qəti əminliyini bildirib. Natiq dövlət-gənclər siyasətindən söz açaraq, bu sahədə ölkə başçısı Cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələr ətrafında geniş və proqram xarakterli çıxış etmiş, gənclərimizə şəxsi və ictimai həyatda uğurlar arzulamış, gələcək fəaliyyətlərinin səmərəli və məhsuldar təmin olunmasına təkan verəcək lazımi tövsiyələr vermişdir.

Tədbirin sonunda ordudan tərxis olunmuş gənclərə və rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup gəncə Fəxri fərmanlar və qiymətli hədiyyələr verilib.

**Rövşən RƏSULOV**

# İsa Qəmbər namizədliyini irəli sürməkdən imtina edir



Bu ilin oktyabr ayında keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ilə əlaqədar olaraq, dağıdıcı müxalif ünsürlərin fəallaşdığı müşahidə olunur. Yəni son günlərə qədər özlərinə qapanıb, dərdlərinin girdabında çabalayan müxalif partiya sədrləri seçkilərin yaxınlaşması fonunda ortaya çıxıb, mövcudluqlarını nümayiş etdirməyə cəhd göstərirlər. Söz yox ki, onları kukla kimi ortaya atıb, oynadan xarici məkrli qüvvələrdir. Məhz pozucu xarici qüvvələr müxalifətə yeni maliyyə yardımı ayırmaqla, onlardan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Xatırlatmaq lazımdır ki, hələ 2017-ci ilin noyabr ayında SOROS fondunun müxalifətə seçkilərlə bağlı texniki məsələlərin həll olunması üçün 1 milyon 200 min dollar ayırdığı barədə mətbuatda yazılar dərc olunmuşdu. Bu məlumatların müxalif partiya sədrləri tərəfindən təkzib olunmaması ortada ciddi nüansların olmasından xəbər verirdi. Həmin məlumatlardan bir qədər əvvəl isə müsavatçı Əfqan Muxtarlının Azərbaycan sərhədlərini qanunsuz şəkildə keçməyə cəhd edərkən, üzərindən 10 min avro aşkar edilərək götürülməsi mətbuatda dərc olunan məlumatların əsaslı olduğunu üzə çıxardı.

## *Arif Hacılı planlarını reallaşdırır*

Maliyyə məsələlərinin, qismən də olsa həll edilməsindən sonra, müxalif partiya sədrləri üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirmək üçün hər cür vasitə və üsullardan istifadə edirlər. İlkin mərhələdə görünən odur ki, müxalif partiya sədrləri daha çox fəaliyyətlərini sosial şəbəkələrdə qurmaqla təxribat xarakterli məlumatlar yayır, şərə-böhtana əsaslanan fikirlər paylaşırlar. Bu məsələdə yenə də Müsavat və AXCP funksionerlərinin daha fəal olmaları, onu göstərir ki, xaricdən daha çox pul alan bu qurumun təmsilçiləridir.

Hadisələrin inkişafına əsaslanaraq, o fikri də qeyd etmək olar ki, son vaxtlara qədər mövqeləri tamamilə zədələnən Müsavat başqanı A.Hacılı artıq rahat nəfəs almağa başlayıb. Yəni o mənada ki, ondan narazı qalan müsavatçılar İ.Qəmbərin sağlamlıq durumunda problemlərin yaranması ilə, özlərindən asılı olmadan ona "stavka" etməyə məcbur olublar. Hətta "Milli Şura"da təmsil olunan Tofiq Yaqublu A.Hacılının Müsavat başqanlığının legitim olduğunu bildirib. Halbuki həbsdən çıxdıqdan dərhal sonra T.Yaqublu Müsavat üzvü olmasına baxmayaraq, fəaliyyətini "Milli Şura" daxilində davam etdirəcəyini bildirmişdi. Səbəbini də A.Hacılının başqan kimi qəbul etməyə hazır olmamasını göstərmişdir. Artıq eyni mövqeyi A.Hacılıya müxalif olan digər şəxslər də nümayiş etdirməkdədirlər.

## *Qurultay İsa Qəmbəri əvəz edəcək namizədin adını müəyyənləşdirəcək*

Mövcud daxili duruma və sızan məlumatlara əsaslanaraq, demək olar ki, seçkilərdə Müsavatın namizədi kimi çıxış etməyi nəzərdə tutulan İ.Qəmbər fikrindən daşına bilər. Daha doğrusu, bu barədə yaxın çevrəsində fikirlər səsləndirməkdədir. Bu halda sual yaranır: elə isə Müsavatdan seçkilərdə namizəd kim olacaq? Və ya Müsavat partiyası kənar bir şəxsin namizədliyini dəstəkləyəcəkmi?

Müsavat başqanının müavini Səxavət Soltanlı etiraf edib ki, İ.Qəmbərin sağlamlıq durumunda ciddi problemlərin yaranması partiya daxilində seçkilərlə bağlı son dərəcə ümidsiz vəziyyət yaradıb. Onun sözlərinə görə, bir sıra suallara cavab tapmaq üçün partiyanın rayon təşkilatlarında və kollegial orqanlarda mübahisələr başlanıb. Bununla belə, S.Soltanlı məsələlərə tam şəkildə Müsavatın may ayında keçirilməsi planlaşdırılan qurultayında aydınlıq gətiriləcəyini söyləyib.

***İ.ƏLİYEV***

# Müxalifət düşərgəsində fikir ayrılıqları, narazılıqlar, parçalanmalar və bir sözlə, xaos hökm sürür



***Müxalifət düşərgəsində cərəyan edən hadisələr, daha dəqiq desək, fikir ayrılıqları, mövqelərin üst-üstə düşməməsi, hətta parçalanmalar belə başa düşüləndir. Çünki bu düşərgədə dəyişməz, vahid mövqe heç zaman olmayıb və olacağı ehtimalı da yoxdur. Əgər milli maraqlar, xalqın mənafeyi və digər bu kimi ali prinsiplər bu düşərgənin prioriteti olsaydı, müşahidə edilən narazılıqlar və parçalanmalar təəccüb doğura bilərdi. Əks halda, yəni şəxsi mövqe və mənafelər ön planda olduğu təqdirdə, dağıdıcı müxalifətdən başqa heç nə gözləməyə dəyməz.***

Fərqi yoxdur, ya AXCP olsun, ya qondarma "Milli Şura" olsun, yaxud da Müsavat və digər belə qurumların hər biri üçün fikir ayrılıqları, narazılıqlar, parçalanmalar, bir sözlə, xaotik vəziyyəti xarakterikdir. Çünki heç bir müxalifət qurumu doğru-dürüst fəaliyyətlə məşğul deyil və ümummilli maraqlar, dövlətçilik ideyaları, xalqın mənafeyi arxa planda olmaqla yanaşı, hər birində funksionerlər yalnız öz şəxsi mənafelərini və maraqlarını, hətta qazancını hər şeydən üstün hesab edir. Kimsə də öz mövqeyini bölüşmək, yaxud digərlərinə güzəştə getmək fikrində deyil. Məhz bu səbəbdən, bu düşərgənin hər bir qurumu daxilində qeyri-etik davranışlar, bir-birinə ünvanlanmış təhqirlər və tez-tez konfliktlər müşahidə olunmaqdadır.

## "Yurd" sədri ilə heç kəs ortaq məxrəcə gələ bilməz

Demokratik qüvvələrin qondarma "Milli Şura"sı bu konfliktlərin çoxluğu, mürəkkəbliyi və rəngarəngliyi baxımından, həmişə olduğu kimi, öz liderliyini qoruyub saxlayır. Nəzərə alsaq ki, Cəmil Həsənlinin sədrliyi formal xarakter daşıyır və əslində idarəetmə Əli Kərimlinin əlindədir, "şura"nın bu konfliktlər fonunda liderliyi təəccüb doğurmur. Çünki yalnız öz mənafeyini düşünən Kərimli kimi birinin, nəinki rəhbərlik etdiyi, hətta təmsil olunduğu bir qurumda belə narazılıqların və parçalanmaların olması labüddür. Öz hiyləgərliyi və istənilən məqamda manipulyasiya etmək bacarığı ilə sayılıb-seçlən "Yurd" sədri ilə heç kəs ortaq məxrəcə gələ bilməz. Ə.Kərimli öz xəyanəti müqabilində, nəinki donorlardan aldığı vəsaitləri, heç hiyləgər düşüncələrini belə bölüşmək fikrində deyil və kiməsə güzəştə getməsinə zərrə qədər ümid yoxdur.

Qondarma "Milli Şura"da koordinasiya surasının üzvü, bir vaxtlar pafoslu çıxışlara yer verən Oqtay Güləliyev Kərimliyə qarşı ittihamlar irəli sürür və onu müxalifətin birliyini parçalamaqda günahlandırır. Müxalifətdə, təbii ki, birlikdən söhbət gedə bilməz və elə Güləliyevin özünün mövqeyində olan vaxtaşırı dəyişkənlik də, bu birliyin olmadığını sübut edir. Lakin "Yurd" sədrinin saxtakarlığı, artıq o həddə çatıb ki, ən yaxın ətrafı belə ondan uzaqlaşmağı düşünür və onun hiyləgərliyindən təngə gəldiyini belə etiraf etməkdən çəkinmir. Daha doğrusu, Güləliyevin timsalında, demək olar ki, çox az sayda qalmış "şura" üzvləri belə bu qurumda təmsil olunmaqdan bezib və Kərimli ilə yaxın olmaqdan imtina edir. Çünki hər biri ayrı-ayrılıqda başa düşür ki, Ə.Kərimli nə siyasi mübarizə haqqında düşünür, nə də buna ehtiyac duyur. Onu maraqlandıran siyasi dividend, xarici havadarlarından və anti-Azərbaycan qüvvələrin ayırdığı maliyyə vəsaitləridir. O vəsaitlərdir ki, Kərimlinin ailəsinin komfortunu, övladlarının xarici ölkələrdə təhsilini və yaşayışını təmin edə bilsin. Təsəvvür edək ki, 30 ilə yaxın işsiz-gücsüz ortalıqda dolaşan birinin ailəsi xarici ölkədə yaşıyır və övladları xarici universitetlərdə ödənişli təhsil alır. Bu zaman, belə bir sual ortaya çıxır ki, bu ödənişlər hansı vəsaitlərlə həyata keçirilir və bu vəsaitlər hansı yollarla əldə edilir? Təbii ki, Kərimli xəzinə üstündə oturmayıb və bu qədər ödənişin öhdəsindən gəlmək heç də asan iş deyil. Bu halda, bəlli olur ki, Kərimlinin bütün fəliyyəti yalnız maliyyə vəsaitlərinin əldə olumasına hesablanıb və bu reallıq öz təsdiqini tapıb.

## Gec-tez bütün üzvlər Kərimlidən üz döndərəcək

Əgər Güləliyev kimiləri bu vəsaitlərin üzünü də görmürsə, onları yalnız Kərimli özü mənimsəyirsə, gec-tez bütün üzvlər ondan üz döndərməlidirlər. Bu gün Güləliyev və başqaları Kərimlinin dəyirmanına su tökməyin faydasız olduğunu anladığı zaman ondan imtina etməsi təəccüblü deyil. Müxalifət düşərgəsində maraqlar ön planda olduğu üçün və daim bu maraqlar toqquşduğu üçün Kərimlinin ətrafında kiminsə qalacağına ümid etmək olmaz. Hətta formal sədr olsa da, Cəmil Həsənliyə münasibət Kərimliyə olan münasibətdən daha sağlamdır. Elə Güləliyevin özü də Kərimlidən uzaqlaşmağı, "şura" sədrinə yaxın olmağı qərara alıb. Çünki Kərimlinin artıq maskası cırılıb və hiyləgərliyinə zərrə qədər şübhə yeri qalmayıb. Amma C.Həsənlinin özü də elə Kərimlinin oyunlarının qurbanıdır və Güləliyev kimi ondan da istifadə olunur.

Digər tərəfdən, C.Həsənlinin "şura" üzvlərinə lazım ola biləcək bir çox imkanları Kərimlinin imkanlarından genişdir. Nəzərə alsaq ki, "şura" sədrinin qızının yoldaşı xarici ölkə vətəndaşıdır və Amerikada qohumları da var, onunla yaxınlaşmaq "şura" üzvləri üçün daha maraqlıdır. Elə bu mənada, Güləliyevin Kərimlidən daha çox Həsənliyə tərəf meyil etməsi də başa düşüləndir. Belə ki, nə vaxtsa Azərbaycanı tərk etmək lazım gələrsə, Güləliyev bu imkanı Həsənli vasitəsilə əldə edəcəyinə inanır.

Göründüyü kimi, müxalifət cəbhəsində təmsil olunanların, ələlxüsus, "şura" üzvlərinin hər biri üçün maraqlar daha vacib hesab olunur və əgər tərəflərdən hansı bu maraqları daha çox təmin edə bilirsə onunla yaxınlığa daha çox meyil edilir. Yəni müxalifətçiləri milli dəyərlər, dövlətçilik maraqları deyil, şəxsi mənafe maraqlandırdığı üçün birləşmələri də yalnız maraqlar çərçivəsində mümkündür. Şəxsi maraqlar, mənafe haqqında düşünənlərinsə, xalqın dəstəyinə zərrə qədər nə haqqı var nə də gümanı.

***İnam HACIYEV***

## Rusiya prezidenti seçkiləri günündə terror aktı hazırlayan İŞİD üzvü zərərsizləşdirilib



Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) RF prezidenti seçkiləri günündə Nijni Novqorodda terror aktı hazırlayan "İslam dövləti" təşkilatının üzvünü zərərsizləşdirib. Bu barədə məlumatı FTX-nin İctimai Əlaqələr Mərkəzi yayıb. Məlumatda qeyd edilir ki, tutulan zaman silahlı müqavimət göstərən cinayətkar FTX-nin xüsusi bölmələrinin gücü ilə zərərsizləşdirilib.

Məlumatda deyilir: "Əldə olunan operativ məlumatlara görə, yaxın xarici ölkələrdən birinin vətəndaşı olan terrorçu Rusiya prezidenti seçkilərinin keçiriləcəyi gün təxribat-terror aktı törətməyə hazır olub".

Bildirilir ki, təxirəsalınmaz istintaq tədbirləri gedişində hadisə yerində cinayətkarda çox güclü əldəqayırma partlayıcı qurğu, daha bir neçə partlayıcı qurğunun hazırlanması üçün komponentlər, odlu silah və döyüş sursatı aşkar edilib. Rusiya FTX-nin Nijni Novqorod üzrə idarəsində "İslam dövləti" terrorçu təşkilatının fəaliyyətində iştirak və terror aktı hazırlamaq faktları üzrə cinayət işi qaldırılıb.

## Əməliyyat yolu ilə silah-sursat götürülüb

Ötən gün daxili işlər orqanlarının əməkdaşları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində uğurlu əməliyyat tədbirləri keçirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 31-də daxil olan əməliyyat məlumatları əsasında keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü polis bölməsinin əməkdaşları tərəfindən saxlanılan şəhər sakini, əvvəllər məhkum olunmuş Arif Kiçiknicatdan nömrəsi silinmiş, istifadəyə yararsız "Naqan" markalı tapança götürülüb. Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılan şəhər sakini Ədalət Məmmədovdan isə müvafiq sənədləri olmayan nömrəsi silinmiş "TOZ-16" markalı ov tüfəngi və 10 patron aşkarlanıb. Saxlanılan şəxslər və götürülmüş maddi sübutlar istintaqa təhvil verilib. Faktlarla bağlı cinayət işləri başlanılıb.

# Əli Kərimliyə “holland” zərbəsi

*Sabiq konsul: “Kərimlinin bu günə qədər siyasətdə heç bir uğuru olmayıb”*

***AXCP sədri Əli Kərimlinin zaman-zaman müxtəlif siyasi çevrələrdən haqlı ittihamlara məruz qalması, artıq adi hala çevrilib. Misal üçün, bu günə qədər bir çox müxalifətçilər, xüsusilə, mühacirətdə olan şəxslər sonradan Ə.Kərimlinin siyasi müxalifətdə atdığı addımlarını pisləyən və tənqid edən fikirlər səsləndirirlər.***

Bu baxımdan, ötən günlərdə Azərbaycanın Hollandiyadakı sabiq konsulu, hazırda müxalifət sıralarında olan Nahid Cəfərovun AXCP sədri ilə bağlı tənqidi fikirləri maraq doğurur. Daha dəqiq desək, N.Cəfərov Kərimliyə qarşı sərt tənqidi ifadələr səsləndirməklə, həmin fikirlərini “YouTube” videoşəbəkəsində yayıb. Halbuki qiyamçı diplomat bir müddət bundan öncəyə qədər cəbhəçilərin sədri ilə isti münasibətlərdə olub, hətta Ə.Kərimliyə daim dəstək göstərəcəyini vəd edib. Sonradan isə bir sıra amillər onun öz vədindən geri dönməsinə səbəb olub. Bunun ardınca isə, Ə.Kərimlinin sosial şəbəkə trolları sabiq diplomata qarşı bəlli hücumlara keçməyə başlayıblar.

## Qiyamçı diplomat: “Siyasi lider özünü necə qurban obrazında təqdim edə bilər..?”

Bəs bütün bunların kökündə dayanan daha hansı məsələdir? İlk başdan deyə bilərik ki, əslində, N.Cəfərovun Kərimliyə “holland” zərbəsi endirməsinin kökündə AXCP sədrinin özündənmüştəbeh davranışları dayanır. Daha doğrusu, Rusiyada Navalnının liderliyi ilə müxalifətçilərin küçələrə çıxmalarının, ardınca isə, Navalnının həbsinin ətrafında siyasi dividend qazanmağa cəhd edən Ə.Kərimlinin bu addımı qiyamçı diplomat tərəfindən pislənilib. Belə ki, Ə.Kərimli dərhal sosial şəbəkədə status yazaraq bildirib ki, Rusiya hakimiyyəti müxalifətin aksiyalarına Azərbaycan hakimiyyətinə nisbətən “daha dözümlü” yanaşır və guya ölkə müxalifətinin uğursuzluğunun əsas baiskarı “liderlər” deyi, xalqdır. AXCP sədri bunu belə “izah” etməyə səy göstərib ki, xalq küçələrə çıxmadıqca, müxalifət



heç nə edə bilməzmiş (?!). Beləliklə, öz uğursuzluqlarını növbəti dəfə xalqın üzərinə atan Kərimli, nəticədə, N.Cəfərovun hədəfinə tuş gəlib. Daha sonradan cəbhəçi sədri “facebook” sosial şəbəkəsində tənqid etməyə davam edən sabiq konsul yazıb ki, AXCP rəhbərinin mövqeyi onun “siyasi lider” kimi tükəndiyini göstərir. SİTAT: “Əgər bir siyasi lider 25 illik mübarizədən sonra, belə deyirsə bu, onun tükəndiyini göstərir. Siyasi lider özünü necə qurban obrazında təqdim edə bilər..?”

Məhz bu kimi fikirlərin ardınca Kərimlinin internet-trolları kütləvi şəkildə keçmiş diplomata qarşı hücuma keçiblər. Onlar N.Cəfərovu “xüsusi xidmət orqanlarına işləməkdə”, onun “müxalifət sıralarına desant kimi atılmaqda” və daha ağlagəlməyəcək suçlamalarla “atəşə tutublar”. Ancaq bununla da kifayətlənməyərək, onun özünə və ailəsinə qarşı saysız-hesabsız küçə söyüşləri və təhqirlər yağdırıblar.

## Nahid Cəfərov: “Bu adam ölkəyə guya liberal dəyərlər gətirmək istəyir, ancaq onu azacıq tənqid etdim, mənə yazılmayan təhqirlər və söyüşlər qalmadı”

Söz yox ki, qiyamçı diplomat da sakit oturmayıb və cavab olaraq yazıb: “Söhbət ölkəyə liberal dəyərlər və demokratik dəyərlər gətirmək iddiasında olan liderin azacıq tənqidinə reaksiyalardan gedir. Kərimlinin bu günə qədər siyasətdə heç bir uğuru olmayıb, 25 illik siyasi fəaliyyətində heç nəyə nail ola bilməyib, ancaq partiyasında öz şəxsiyyətinə pərəstiş formalaşdırmaqla məşğul olub. Bu adam ölkəyə guya liberal dəyərlər gətirmək istəyir, ancaq onu azacıq tənqid etdim, mənə yazılmayan təhqirlər və söyüşlər qalmadı. Onun tərəfdarlarından bir nəfəri də demədi ki, ay qardaş, təhqir niyə yazırsan? Bəyəm, bu adam Ə.Kərimlinin şəxsiyyətini və ailəsini təhqir edib? Əgər Kərimli rüşvət alan hansısa adi məmura görə hakimiyyəti günahlandırırsa, deməli, onun sosial şəbəkələrdə söyüş yazan tərəfdarlarına görə də, məsuliyyəti o daşımalıdır. Bu adam guya ölkəyə liberal dəyərlər gətirmək istəyir, amma özü həmin dəyərləri tapdalayır”.

N.Cəfərov əlavə edib ki, Ə.Kərimli siyasi lider deyil. “Çünki siyasi lider gələcəyə dair öz baxışları olan, partiyasındakıları və başqalarını bu gələcəyə inandıra bilən adama deyilir”.

## Keçmiş konsul: “Sabah Kərimli hakimiyyətə gəlsə, cibimə narkotik atıb məni tutduracaq”

Sabiq diplomat daha sonra qeyd edib: “Kərimli isə, ancaq keçmişlə məşğuldur, gələcəyə dair heç bir baxışları yoxdur. Bütün fəaliyyətini ancaq hakimiyyətin tənqidi üzərində qurub. Ancaq hakimiyyətin elədiklərini tənqid etməklə, insanları necə inandıra bilərsən? Hakimiyyət Ə.Kərimlinin mitinqlərindən qətiyyən narahat deyil, ona görə də, sənə stadion verib və sən heç bu stadionu da doldura bilmirsən. Bu gün Ə.Kərimli Azərbaycanda liberal dəyərlərə ən böyük maneədir, əngəldir. Baxın, bu gün onun adamları mənə böhtan və söyüş yağdırır. Təkcə ona görə ki, mən Kərimlini azacıq tənqid etmişəm. Çünki əllərində olan vasitə ancaq budur-söyüş və böhtan. Deməli, sabah Kərimli hakimiyyətə gəlsə, cibimə narkotik atıb məni tutduracaq. İndi bunu etməyə onların, sadəcə olaraq, imkanı yoxdur, əllərində olan imkan söymək, təhqir etməkdir ki, bundan gen-bol istifadə edirlər”.

N.Cəfərovun sözlərinə görə, Kərimli AXCP üzvlərindən ancaq öz şəxsiyyətinə pərəstiş formalaşdırmaq və başqalarını qaralamaq və özünü qorumaq üçün yararlanır. “Özü barədə qurban obrazı yaradır, amma qurban obrazı ilə müxalifətçilik eləmək olmaz”-keçmiş konsul yazır.

## İttiham: “Siz siyasəti murdarladınız, iyrənc mübarizəyə çevirdiniz və insanların ümidlərini məhv etdiniz”.

N.Cəfərov, həmçinin, əlavə edib ki, Ə.Kərimli Fikrət Hüseynli kimi dələduzları və saxta sənəd alverçilərini vitrinə çıxarır. Bu da, insanlarda siyasətə olan inamı öldürür. Onun sözlərinə görə, Kərimli demokratiya uğrunda mübarizə aparırsa, birinci özündən və ətrafından başlamalıdır. “Ə.Kərimli bu gedişlə tamamilə iflasa uğrayacaq, mariginallaşacaq və heç kim onu ciddiyə almayacaq”-N.Cəfərov yazıb.

Sabiq diplomat Kərimliyə keçmişini də xatırladıb: “Ə.Kərimli, bu 25 ildə nə edib, çıxıb cavab versin...Vaxt var idi oturmuşdun parlamentdə...Sən insanların ümidini və gələcəyə inamını qırdın. Bu gün azacıq tənqidə görə, Kərimlinin trolları mənə hücum çəkir. Budur Ə.Kərimlinin Azərbaycan xalqına vəd etdiyi gələcək? Siz siyasəti murdarladınız, iyrənc mübarizəyə çevirdiniz və insanların ümidlərini məhv etdiniz”.

Beləliklə, zaman keçdikcə, bu gün özünü “ana müxalifətin lideri” kimi sırıyan Ə.Kərimlinin ifşası daha da artır. Bu kimi ifşaların aldanaraq, onun tərəfinə keçmiş şəxslərin etməsi isə, artıq AXCP sədri ilə bağlı bütün reallıqları tam çılpaqlığı ilə ortaya qoymuş olur.

***Rövşən NURƏDDİNOĞLU***

## Çində qaz zəhərlənməsindən azı 9 nəfər ölüb

Çinin Quycou vilayətində qaz zəhərlənməsindən 9 nəfər ölüb, 2 nəfər xəsarətlə xəstəxanaya yerləşdirilib. AZƏRTAC xəbər verir ki,



hadisə Liupanşuy şəhərindəki poladəritmə zavodunda fəhlələr 60 min kvt gücündə generator şəbəkəsini təmir edərkən baş verib. Hadisənin başvermə səbəbləri hələlik məlum deyil.

## Rəsul Quliyev 1992-ci il seçkilərini şübhəli adlandırdı

*Eks-spiker: “50 faiz saxtalaşdırılıb”*

***Eks-spiker Rəsul Quliyev dağıdıcı müxalifətin vaxtilə özünə lider seçdiyi AXCP-nin mərhum sədri Əbülfəz Elçibəyin 1992-ci ildə keçirilmiş prezident seçkilərində saxtakarlıq yolu ilə prezident seçildiyini iddia edib. O, 50 faiz saxtalaşdırıldığını deyib və bunun üçün əlində kifayət qədər sübutların da olduğunu bildirib. Beləliklə, R.Quliyev deyib: “Həmin seçkilər zamanı seçkilərin 50 faiz saxtalaşdırıldığına dair əlimdə kifayət qədər dəlillər və faktlar var”.***

Söz yox ki, 2018-ci il oktyabr seçkiləri ərəfəsində yenidən ortaya çıxaraq, xal toplamağa çalışan digər müxlaifətçilər kimi, R.Quliyev də eyni addmı atır və hətta bir az da irəli gedərək, onların hər birinə qalib gələcəyini iddia edir. Məhz bundan sonra elçibəyçilər tərəfindən sabiq spikerin üzərinə hücumlara başlanılıb.



## Elçibəyin köməkçisi: “Əgər Rəsul Quliyevin beynində bu məsələlər indi qalxıbsa, bu, artıq onun psixoloji problemidir”

Misal üçün, Ə.Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov bildirib ki, R.Quliyev Amerikada oturub, ağlına gələni danışır və üstəlik, hakimiyyətə gəlmək iddiası ilə çıxış edir. “Rəsul Quliyev köhnə palan içi tökməklə, guya köhnə səhvləri, yanlışları deməklə özünü meydanda və gündəmdə tutmağa çalışır”-deyə qeyd edən O.Qasımov əlavə edib ki, əslində, R.Quliyevin də daxil olduğu və dəstəklədiyi cinah, Rusiyanın, İranın və həm də Ermənistanın dəstəklədiyi namizəd Nizami Süleymanov idi. Elçibəyin köməkçisi sabiq spikeri dəli adlandırıb və iddialarının psixoloji problemlərindən irəli gəldiyini bildirib: “Əgər Rəsul Quliyevin beynində bu məsələlər indi qalxıbsa, bu, artıq onun psixoloji problemidir”.

## Oqtay Qasımov: “Rəsul Quliyev elə addımlar atıb ki, onun bağışlanması mümkün deyil...”

Yeri gəlmişkən, o da sirr deyil ki, Elçibəyin hakimiyyətə gəlməsi istiqamətində R.Quliyev zamanında kifayət qədər pul xərcləyib. Hətta bunu O.Qasımov da dolayısı ilə isbatlayıb və Elçibəyin sabiq spiker haqqında dediklərini xatırladıb, diqqəti onun dövlətdən oğurladığı milyonlara yönəldib: “Rəsul Quliyev bu cür sərsəm iddialarla xal qazanmaq istəyirsə də, onun Azərbaycana dönüşü və ya hakimiyyətə gəlməsi qeyri-mümkündür...Amma Rəsul Quliyev elə addımlar atıb ki, onun bağışlanması mümkün deyil... 1990-cı ildə Rəsul Quliyevə açılmış cinayət işi rəhbərlik etdiyi Neft Emalı Zavodunda yol verdiyi yeyintilərlə bağlı idi. Bu yeyinti o zaman aparılan ilkin araşdırmalara görə, 52 milyon dollar idi. Əbülfəz Elçibəyin 1998-ci ilin sonlarında bir ifadəsi var idi: “Məni sənin pulların yıxdı, Rəsul”.

## Od olmasa, tüstü çıxmaz...

Söz yox ki, bu kimi məsələlərin ictmai rəyin diqqətinə çatdırılması həmin dönəmlərdə ölkədə siyasi böhranın, özbaşınalıqların və saxtakarlıqların cərəyan etdiyini bir daha təsdiqləyir. Daha dəqiq desək, “od olmasa, tüstü çıxmaz” el məsəlini əsas götürərək, R.Quliyevin bu məsələdə həqiqəti dediyini də düşünmək olar. Hər halda, bu gün bir-birilərinin qaranlıq və cinayətkar keçmişlərini ifşa edənlərin, əslində, Azərbaycan xalqına və dövlətçiliyinə qarşı nə qədər düşmən mövqedə dayandıqları növbəti dəfə öz təsdiqini tapır. Bu baxımdan, “Elçibəy yolu” gedənlərin zaman-zaman, xüsusilə, seçkilər ərəfəsində “azad seçki” şüarları ilə ictimai rəy qarşısında xal toplamaq cəhdlərindənsə, onlar öz dövrlərində çıxardıqları siyasi oyunbazlıqları etiraf etsəydilər, daha yaxşı olardı.

***R. RƏSULOV***

# Mülkiyyət hüququnun növləri

***Azərbaycan Respublikasının dövlət mülkiyyəti Azərbaycan xalqına məxsusdur. Naxçıvan Muxtar Respublikasının dövlət mülkiyyəti Azərbaycan Respublikasının dövlət mülkiyyətinə daxildir. Azərbaycan Respublikasında dövlət mülkiyyətinin bir hissəsi yerli dövlət hakimiyyəti orqanlarının mülkiyyətinə verilə bilər (bələdiyyə mülkiyyətinə). Dövlət əmlakı barəsində sərəncam verilməsini və onun idarə edilməsinin müvafiq Xalq Deputatları Sovetləri və onların vəkil etdikləri dövlət orqanları Azərbaycan Respublikasının mənafeyinə zidd olmadan həyata keçirirlər.***

**Dövlət mülkiyyəti hüququnun obyektləri aşağıdakılardır:** respublika ərazisi hüdudlarında torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi və hava hövzəsi Azərbaycan Respublikasının müstəsna mülkiyyətidir. Azərbaycan Respublikası torpağı öz vətəndaşlarının xüsusi mülkiyyətinə verə bilir.

Azərbaycan Respublikası onun ərazisinə bitişik Xəzər dənizi iqtisadi zonasının ehtiyatlarına beynəlxalq hüquqla təsdiq edilmiş hədlərdə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam hüququna malikdir.

Azərbaycan Respublikasının ərazisində olan bütün xalq təsərrüfatı sahələrinin müəssisələri, energetika, nəqliyyat və rabitə şəbəkələri (sistemləri), dövlət mənzil fondu, dövlət idarələrinin əmlakı, mədəni sərvətlər və tarix abidələri, infrastruktur obyektləri, o cümlədən, kurort-turist təyinatlı obyektlər, dövlətin vəsaiti hesabına yaradılmış digər əsas fondlar, dövlət bankları, maliyyə və kredit ehtiyatları, qiymətli kağızlar və suveren dövlət kimi Azərbaycan Respublikasının qarşısında duran vəzifələri həyata keçirmək üçün lazım olan digər əmlak Azərbaycan Respublikasının dövlət mülkiyyətinə aiddir.

Azərbaycan Respublikasının dövlət maliyyə ehtiyatları hesabına yaradılmış və başqa dövlətlərin ərazisində yerləşən müəssisələr və ya onların hissələri də Azərbaycan Respublikasının dövlət mülkiyyətidir.

Bələdiyyə mülkiyyətində yerli dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının əmlakı, yerli büdcənin və büdcədənkənar fondların vəsaiti, mənzil fondu, mənzil fondu evlərindəki qeyri-yaşayış otaqları, mühəndis infrastrukturu obyektləri (su kəməri-kanalizasiya təsərrüfatı, istilik təchizatı, elektrik təchizatı, qaz təchizatı, şəhər elektrik nəqliyyatı qurğuları və şəbəkələri, bayır abadlıq obyektləri), istehlakçılara, bilavasitə kommunal xidmətlər göstərən və Xalq Deputatları Sovetlərinin ərazisində olan digər obyektlər ola bilər.

Kənd təsərrüfatı, ticarət, məişət xidməti, nəqliyyat, sənaye, tikinti müəssisələri və digər müəssisələr, əmlak kompleksləri, xalq təhsili, mədəniyyət, səhiyyə müəssisələri və inzibati-ərazi qurumlarının iqtisadi və sosial inkişafı üçün lazım olan başqa əmlak bələdiyyə mülkiyyətində ola bilər.

Yerli dövlət hakimiyyəti orqanları onların mülkiyyətində olan əmlakın hüquqi rejimini Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə müəyyən edirlər.

Yerli dövlət hakimiyyəti orqanlarının sərəncamındakı obyektləri, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna olmaqla, həmin orqanlarla razılaşdırmadan özgəninkiləşdirmək, götürmək və yenidən bölüşdürmək qadağandır.

**Dövlət və bələdiyyə müəssisələri və idarələrinin əmlakı:** Dövlət və ya bələdiyyə mülkiyyəti olan, dövlət və ya bələdiyyə müəssisəsinə təhkim edilmiş əmlak tam təsərrüfatçılıq səlahiyyəti ilə müəssisəyə məxsusdur.

Dövlət və ya bələdiyyə əmlakının idarə olunması üçün vəkil edilmiş orqan dövlət və ya bələdiyyə müəssisəsinin yenidən təşkil olunması, yaxud ləğv edilməsi haqqında qərar qəbul etdikdə, müəssisə iqtidarsız (müflis) hesab edildiyi hallar istisna olmaqla, əmək kollektivinin ixtiyarı vardır ki, müəssisəni ona icarəyə verməyi və ya onu kollektiv, yaxud xüsusi mülkiyyət hüququna əsaslanan başqa müəssisəyə çevirməyi tələb etsin.

Dövlət və ya bələdiyyə mülkiyyəti olan və mülkiyyətçi tərəfindən dövlət və ya bələdiyyə büdcəsindəki idarəyə təhkim edilmiş əmlak həmin idarənin operativ idarəsində olur.

Dövlət və ya bələdiyyə mülkiyyətində olan müəssisələr, əmlak kompleksləri, binalar, qurğular və başqa əmlak Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktları ilə vətəndaşların və hüquqi şəxslərin xüsusi mülkiyyətinə çevrilə bilər.

> “Azərbaycan Respublikasının ərazisində olan bütün xalq təsərrüfatı sahələrinin müəssisələri, energetika, nəqliyyat və rabitə şəbəkələri (sistemləri), dövlət mənzil fondu, dövlət idarələrinin əmlakı, mədəni sərvətlər və tarix abidələri, infrastruktur obyektləri, o cümlədən, kurort-turist təyinatlı obyektlər, dövlətin vəsaiti hesabına yaradılmış digər əsas fondlar, dövlət bankları, maliyyə və kredit ehtiyatları, qiymətli kağızlar və suveren dövlət kimi Azərbaycan Respublikasının qarşısında duran vəzifələri həyata keçirmək üçün lazım olan digər əmlak Azərbaycan Respublikasının dövlət mülkiyyətinə aiddir.”

Kollektiv mülkiyyət hüququ əmlaka, eyni zamanda sahiblik, ondan istifadə və onun barəsində sərəncam sahəsində kollektivin (şəxslər qrupunun) qanunla qorunan hüquqlarının məcmusudur.

Əmlak, hər bir mülkiyyətçinin payı məlum olmaqla (paylı mülkiyyət), yaxud məlum olmamaqla (birgə mülkiyyət) kollektiv mülkiyyət hüququ əsasında məxsus ola bilər.

Kollektiv mülkiyyətə hüquqi şəxslər olan kollektiv və icarə müəssisələrinin, kooperativlərin, səhmdar cəmiyyətlərinin, təsərrüfat ortaqlıqları və təsərrüfat assosiasiyalarının, həmkarlar ittifaqı təşkilatlarının və başqa ictimai və dini təşkilatların, vətəndaşların birlik və ictimai hərəkatlarının mülkiyyəti aiddir.

Kollektiv mülkiyyət dövlət əmlakının qanunla qoyulmuş qaydada mülkiyyət kimi kollektivlərə verilməsi, hüquqi şəxslərin öz vəsaiti, yaxud borc aldıqları vəsait hesabına əmlak yaradılması və ya əldə edilməsi hesabına əmələ gəlir.

Kollektiv mülkiyyətdə olan əmlaka sahiblik etmək, ondan istifadə etmək və onun barəsində sərəncam vermək bütün mülkiyyətçilərin razılığına əsaslanır, razılıq olmadıqda isə, məsələ mülkiyyətçilərdən hər hansı birinin iddiası ilə məhkəmə, arbitraj və ya münsiflər məhkəməsi tərəfindən həll edilir.

Kollektiv mülkiyyətdəki pay kənar şəxsə satılarkən, bu payı almaq üçün üstünlük hüququ Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi və hüquqi şəxsin nizamnaməsi ilə qoyulmuş qaydada və şərtlərlə kollektiv mülkiyyəti alan iştirakçılara verilir.

**Sahibkar birliyinin mülkiyyəti:**

Hüquqi şəxs sayılan təsərrüfat cəmiyyətlərinin və ortaqlıqlarının, kollektiv müəssisələrin və icarə müəssisələrinin, kooperativlərin və başqa hüquqi şəxslərin sahibkar birliyi (konsernlər, assosiasiyalar, sahələrarası regional birliklər və başqa birliklər) iştirakçılar tərəfindən könüllü surətdə onun mülkiyyətinə verilən, habelə, sahibkar birliyinin fəaliyyəti nəticəsində, əldə edilən əmlak üzərində mülkiyyət hüququna malikdirlər. Sahibkar birliyi iştirakçılarının birliyə daxil olmayan əmlakı üzərində birliyin mülkiyyət hüququ yoxdur. Sahibkar birliyinin fəaliyyətinə xitam verildikdən sonra qalan əmlak birliyə daxil olmuş müəssisələr və təşkilatlar arasında bölüşdürülür.

Hüquqi şəxslər sayılan ictimai birliklərin mülkiyyətində binalar, tikililər, mənzil fondu, avadanlıq, inventar, mədəni-maarif və sağlamlıq təyinatlı əmlak, pul vəsaiti, səhmlər, digər qiymətli kağızlar və onların nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün zəruri sayılan başqa əmlak ola bilər.

İctimai birliklər sahibkarlıq fəaliyyətilə məşğul ola bilərlər, bu fəaliyyəti həyata keçirmək məqsədilə müəssisələr və nizamnamə vəzifələrinin yerinə yetirmək üçün zəruri olan hədlər daxilində başqa əmlak yarada və ala bilərlər.

İctimai birliklər tərəfindən yaradılan, yaxud əldə edilən, hüquqi şəxslər olan müəssisələr və idarələr özlərinə təhkim edilmiş əmlak üzərində tam təsərrüfat səlahiyyətinə və ya operativ idarəetmə hüququna malikdirlər.

İctimai birlik ləğv edildikdə, qalan əmlak büdcə, banklar və başqa kreditorlar ilə haqq-hesabdan sonra birliyin nizamnaməsində nəzərdə tutulan məqsədlərə yönəldilir.

Hüquqi şəxslər sayılan xeyriyyə fondları və başqa ictimai fondlar öz nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək üçün təsisçilərin onlara verdikləri əmlak üzərində mülkiyyət hüququna malikdirlər.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Diqqət: Xərçəngi xəbər verən əlamətlər

Xərçəngdən qorunmaq və sağlam həyat tərzi üçün bədəndə meydana gələn ən xırda dəyişikliklərə belə önəm vermək lazımdır. Xərçəngə səbəb ola biləcək dəyişiklikləri təqdim edirik. Antalya Onkologiya Mərkəzinin rəhbəri, professor Mustafa Özdoğan bu əlamətlərin əvvəlcə önəmsənilməsə də, bir neçə həftə davam etməsi təqdirində mütləq həkimə müraciət edilməli olduğunu deyir. Bəs bu əlamətlər hansılardır?

**Qarında şişkinlik**

Əgər qarnınızda bir şişkinlik var və bu iki həftədən çox davam edirsə mütləq həkimə müraciət edin. Bu əlamət yumurtalıq xərçənginin ilkin, bəzən isə yeganə əlaməti ola bilər. Qarındakı şişkinlik ən yüksək ölüm riski olan bağırsaq xərçənginin də əlamətlərindən biri sayıla bilər.

**Yeməkdən sonra həzm problemi**

Az yeməkdən sonra belə toxluq hiss etmək yumurtalıq, mədəaltı vəz və ya mədə xərçənginin əlaməti ola bilər. Mədəaltı vəz xərçəngi ən çətin müalicə edilə bilən və mümkün olan ən erkən mərhələdə tapılması gərəkən bir xəstəlikdir. Bu xərçəng növünün ən çox rast gəlinən əlamətləri iştahın itirilməsi, çəkinin sürətlə azalması, gözlərin və ya dərinin saralması, solğunluq, sürüşkən nəcisdir.

**Ayaqyoluna tez-tez getmək**

Tez-tez tualetə getmək istəyinin olmasına baxmayaraq, sidikə çıxa bilməmək əksər hallarda sidik kisəsi xərçənginin əlaməti ola bilər. Bu xəstəlik adətən orta yaşı keçən kişilərdə müşahidə edilir. Bu zaman onlarda sidiyin rəngi sarı və tünd qırmızı olur. Bu əlamət yumurtalıq xərçəngi zamanı da müşahidə oluna bilər.

**Süd vəzində hiss edilən şişkinlik**

Süd vəzilərində əllə yoxladıqda hiss edilən şişkinlik bədənin bu hissəsində müşahidə edilən xərçəngin ən əsas əlamətlərindən biridir. Süd vəzisində şişkinlik, dəridə qızarıqlıq, rəng dəyişikliyi varsa mütləq həkim nəzarətindən keçməlisiniz.

**Sürətlə arıqlama**

Sürətlə çəkinin azalması xərçəngin xəbərçisi ola bilər. Səbəbi açıqlanmayan arıqlama əsasən mədə, mədəaltı vəz, ağciyər, böyrək xərçəngində müşahidə edilir. Bu zaman insan nə qədər yaxşı qidalansa da çəki azalır. Bununla yanaşı ürək bulanması, qusma və halsızlıq da müşahidə oluna bilər.

**Səsin tutulması**

Çox zaman səsin tutulması soyuqlama, qrip, allergiya kimi xəstəliklərin əlaməti hesab edilir. Amma bu hal uzun müddət davam edirsə diqqətli olun. Xüsusilə siqaret çəkən şəxslər. Bu zaman həkimə müraciət etmək qırtlaq və ağciyər xərçənglərinin erkən müəyyən edilməsinə kömək edə bilər.

**Dırnaq üzərində cızıqlar**

Ayaq və ya əl dırnaqlarında müşahidə edilən tünd rəngli cızıqlar ən çox insan itikisinə yol açan dəri xərçənginin əlaməti ola bilər. Bu əlaməti qulaqardına vurmaq lazım deyil. Bundan əlavə xroniki yaralar, yara izləri, bəzi rəngi və ya forması dəyişik olan xallar belə xərçəngin erkən müəyyən edilməsində böyük rol oynayır.

# Açıqlandı: Salat yaddaşı gəncləşdirir



İnsanlarda yaddaş problemləri, yaddaşla bağlı məsələlər daima gündəmdə olub. İnsan sağlamlığında bu faktorun önəmli yer tutduğunu nəzərə alsaq, o zaman bu məsələnin aktuallığını daha dərindən dərk etmiş olarıq. "Cumhuriyet.com.tr" saytında yer alan xəbərə görə, ABŞ-ın Rush Universitetinin alimləri bu barədə araşdırma aparıblar.

Belə ki, yaşı 81 olan 960 nəfərin sağlamlıq durumları tədqiq edilib. "K" vitamini ilə zəngin olan kahı, ispanaq və s. kimi göyərtilərlə hazırlanmış salatlardan istifadə edən 960 nəfər hər il yaddaş və intellekt testlərindən keçirilib. Testlərin nəticəsində məlum olub ki, salat yaddaşa müsbət təsir edən ən vacib qidadır.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Cəfərova Günel Xəqani qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


# səs

Son səhifə 2 fevral


# "Neftçi"nin güləşçiləri Bakı birinciliyində 7 medal qazanıblar



Hövsan Olimpiya İdman Kompleksində yeniyetmələr arasında yunan-Roma güləşi üzrə Bakı birinciliyi keçirilib. 1-5-ci yerləri tutan güləşçilərə respublika birinciliyində iştirak hüququ qazandıran yarışda 300-ə yaxın idmançı çempionluq uğrunda mübarizə aparıb. SİA xəbər verir ki, "Neftçi İdman Klubu"nun yeniyetmə pəhləvanları 2-si qızıl, 1-i gümüş və 4-ü bürünc olmaqla turnirin 7 medalına sahib olublar.

Klubun üzvlərindən Allahverdi Əliyev (71 kq) və Qabil Əhmədov (80 kq) bütün görüşləri qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Yalnız final qarşılaşmasında məğlubiyyət acısı yaşayan Hüseyn Qəribov (48 kq) gümüş, Xanhüseyn Abışov (55 kq), Xasay Həsənli, Elcan Məmmədov (hər ikisi 65 kq) və Elton Əzimli (80 kq) isə bürünc medala layiq görülüblər. Qeyd edək ki, klubun yetirmələri komanda hesabında ikinci yeri tutublar.



# FIFA: "Dünya çempionatının oyunları üçün bütün stadionlar martın axırınadək hazır olacaq"

FIFA-nın Yarışların və tədbirlərin keçirilməsi üzrə departamentinin direktoru Kolin Smit bu ilin yayında Rusiyada təşkil olunacaq futbol üzrə dünya çempionatının oyunları üçün stadionların hazırlığı barədə danışıb. AZƏRTAC xəbər verir ki, departament direktoru stadionların müxtəlif hazırlıq mərhələsində olduğunu bildirib. Bu səbəbdən final cizgiləri fərqlidir. Bəzi yerlərdə demək olar ki, təkcə işəsalma qalıb.

Smit deyib: "Stadionlarda xeyli müvəqqəti konstruksiyaların quraşdırılmasına ehtiyac var ki, məhz bununla da məşğuluq. Azarkeşlər və mətbuat üçün rahatlıq təmin olunmalıdır. Bütün stadionlar martın sonunadək hazır olacaq. Qrafikə görə, Samarada geriləmə var. Lakin biz yeni planı gördük, podratçıdan və yerli hakimiyyət orqanlarından təminat aldıq ki, hər şey vədəsində tikiləcək. Vəziyyəti izləməkdə davam edirik".

# "Neftçi" "Sabah"a qarşı



Antalyada təlim-məşq toplanışında olan "Neftçi" daha bir yoxlama oyununu Bakıda keçirəcək. SİA-nın məlumatına görə, Tərlan Əhmədovun komandası "Sabah"la qarşılaşacaq. Bu barədə məlumatı birinci divizion klubunun mətbuat xidməti yayıb. Fevralın 5-də İsmət Qayıbov adına təlim-məşq bazasında keçiriləcək oyun saat 15:00-da başlayacaq.

# Rayan Qiqqs: "Beyl "Real"ı tərk etmək istəmir"



Uels millisinin baş məşqçisi Rayan Qiqqs həmyerlisi Qaret Beylin "Real Madrid"dən getmək ehtimalına toxunub. SİA-nın məlumatına görə, gənc mütəxəssis bunları deyib: "Son aylarda Beyl göstərdi ki, millinin əsas oyunçularından biridir. Əsas məsələ komandadır, amma heyətə Qaret kimi güclü futbolçular lazımdır. Onunla artıq danışmışıq. Beyl "Real"da xoşbəxtdir və klubu tərk etmək istəmir. O, rəhbərlik və məşqçilər korpusunun ona necə münasibət bəslədiyini bilir. Buna görə azarkeşlərə nəyə qadir olduğunu göstərmək istəyir". Qeyd edək ki, bu mövsüm 28 yaşlı futbolçu İspaniya Primerasında 10 oyun keçirib və 6 qol vurub.

# İngilis klubları bu qış transferlərə 430 milyon funt xərcləyiblər

İngiltərə Premyer Liqasının klubları bu qış transferlərə, ümumilikdə, 430 milyon funt xərcləyiblər. AZƏRTAC xəbər verir ki, bu, İngiltərə Premyer Liqası üçün rekord məbləğdir və təxminən əvvəlki rekord göstəricini - 2011-ci ildəki 225 milyon funtu iki dəfə üstələyir. Bu barədə jurnalist Riçard Konuey "Deloitte"nin tədqiqatlarına istinadən bildirib. Virgil van Deykin "Sautgempton"dan "Liverpul"a 75 milyon funta, Emerik Laportun "Atletiko"dan "Mançester Siti"yə 57 milyon funta və Pyer-Emerik Obameyanqın Dotrmund "Borussiya"sından "Arsenal"a 56 milyon funta keçməsi ən bahalı transferlər sayılır. Klubların yanvar transferində futbolçuların satışından əldə etdiyi gəlir 340 milyon funt təşkil edib ki, bu da həmin dövr üçün rekord məbləğdir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**